RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 36 (8629) ÇƏRŞƏNBƏ, 17 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev Qarabağın tarixi şöhrətini tezliklə qaytaracaq

## Prezidentin iştirakı ilə azad edilmiş bölgədə sosial infrastrukturun istifadəyə verilməsi Böyük Qayıdışın əlamətdar hadisəsidir

"Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri zamanı səsləndirdi.

Dövlət başçısının işğaldan azad olunmuş rayonlara budəfəki səfəri bir çox aspektlərdən xüsusi önəm daşıyırdı. Səfər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin qoyulması həm siyasi, iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edirdi.

### Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən layihə

Səfər Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması ilə başladı. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən layihənin başlanğıcı kimi qiymətləndirilməli olan bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Digər vacib məsələ isə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsi yaranacaq.

Qeyd edək ki, 2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanat ölkəmizin öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı Vətən müharibəsinin Azərbaycanın tam qələbəsi ilə başa çatmasını hüquqi cəhətdən təsdiqləməklə yanaşı, həm də özündə müharibədən sonrakı dövr üçün regionun iqtisadi inkişafına dair mühüm məqamlar əks etdirir. O cümlədən bəyanatın 9-cu maddəsində qeyd olunur ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Başqa sözlə desək, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Fevralın 14-də Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla 10 noyabr Bəyanatının həmin maddəsinin icrasına start verdi.

Ardı 3-cü səh.

# İndoneziya Azərbaycanı daim dəstəkləyən ölkədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Hildi HAMİD** dedi:

- Zati-aliləri Prezident İlham Əliyev. İndoneziya Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim etməkdən şərəf duyuram. İcazə verin həmçinin Sizə Prezident Coko Vidodonun İndoneziya hökuməti və xalqı adından səmimi salamlarını çatdırım. Prezident Coko Vidodo İndoneziya ilə Azərbaycan arasında, xüsusilə iqtisadiyyat sahəsində daha güclü əməkdaşlığın və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi arzusundadır. Təşəkkür edirəm.

Səfiri salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, cənab səfir. Sizi görməyə çox şadam. Xahiş edirəm mənim də ən xoş salamlarımı cənab Prezident Coko Vidodoya çatdırın. Mən bizim əməkdaşlıqda sürətli inkişafı görəcəyimə ümid edirəm. Siz də qeyd etdiyiniz kimi, iqtisadi sahədə daha mühüm tərəfdaşlıq istiqamətlərini müəyyən etmək üçün bizim çox böyük potensialımız var.

Ardı 2-ci səh.

# Azərbaycan ilə Belarus qarşılıqlı əməkdaşlığı davam etdirmək niyyətindədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Andrey RAVKOV** dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti, icazə verin Sizi salamlayım. Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun etimadnamələrini Sizə təqdim etməyi özümə şərəf sayıram. Bu etimadnamələrlə o, mənə Belarus Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri kimi son dərəcə məsuliyyətli bir missiyanı etibar edir. Sizə bildirirəm ki, əvvəlki səfir Gennadi Vladimiroviç Axramoviç işini başa çatdırıb və Belarus Respublikasına gedib.

Səfiri salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sağ olun. Sizi Azərbaycanda salamlayıram, vaxtınızın xoş keçməsini və fəal iş arzu edirəm. Mənim fikrimcə, iş çox olacaq. Ona görə ki, bizim dövlətlərarası münasibətlərin gündəliyi yetərincə genişdir, çox sahələri əhatə edir. Son illərdə biz həm siyasi, həm iqtisadi sahələrdə, həm də sənaye kooperasiyası sahəsində fəal qarşılıqlı işlər görmüşük.

Ardı 2-ci səh.

## *Prezident İlham ƏLİYEV:* "Bir amalım var idi - güclü Azərbaycan qurmaq"

Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına yönəldilən üç dövlət proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir. Dördüncüsünün isə iki ili artıq arxada qalmışdır. Ulu Öndər Heydər Əliyevin iqtisadi strategiyasını uğurla davam etdirən və günün tələbləri baxımından uzaqgörənliklə inkişaf etdirən Prezident İlham Əliyev müəllifi olduğu bu proqramları reallaşdırmaqla Azərbaycanın hərtərəfli yüksəlişinə böyük təkan vermişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) 17 il əvvəl fevral ayında təsdiq edilmişdir. Düzgün seçilmiş yol - ölkənin bütün regionlarının tarazlı inkişafı bugünkü nailiyyətlərə gətirib çıxarmışdır. Dövlət başçısı deyir ki, bu gün artıq dəyişən dünyada güc amili rəsmi qaydada ön plana çıxıb və güc elə iqtisadiyyatdır: "İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil... Güc toplamaq üçün əlbəttə ki, düzgün siyasət aparılmalıdır. Son 17 il ərzində mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək! Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik. İqtisadi inkişafın templərinə görə son 17 il ərzində Azərbaycan dünya miqyasında birinci yerdədir".

Ardı 5-ci səh.




## Ölkə üzrə peyvəndləmə prosesi mərhələli şəkildə davam edir

Artıq iki aydan çoxdur ki, yeni növ koronavirusa qarşı əksər ölkələrdə sürətli peyvəndləmə işi aparılır. Mütəxəssislər vaksinasiyanın qlobal bəlaya qarşı daha effektiv olması üçün bütün ölkələrdə onun tətbiqinin vacibliyini önə çəkirlər.

Dünyanın əksər ölkəsi Çinin "Sinopharm", "Sinovac" və "CanSinBio" şirkətlərinin COVID-19 əleyhinə peyvəndlərindən istifadə etməyə üstünlük verir. Bununla bağlı "Global Times" qəzetində məlumat verilib ki, Avropa, Asiya və Latın Amerikasından təxminən 40 ölkə Çin istehsalı olan 500 milyon dozadan çox COVID-19 peyvəndini sifariş edib. Bildirilir ki, adıçəkilən şirkətlərin COVID-19 əleyhinə peyvəndləri həm ölkə daxilində istifadə olunur, həm də xaricə ixrac edilir. Türkiyə, Pakistan, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Serbiya, Macarıstan, İndoneziya, Braziliya və digər ölkələr Çin peyvəndlərindən istifadə etməyə başlayıblar.

Ardı 6-cı səh.

## "İlham Əliyev bizə tarixin ən böyük məğlubiyyətini yaşatdı"

### Azərbaycan Prezidentinin Qarabağa son səfəri Ermənistanda təşvişi daha da artırdı

Ermənistan ictimaiyyətini həyəcanlandıran növbəti hadisə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad olunan Qarabağa növbəti səfərləri olub. Bu səfər Ermənistanda təşvişi daha da artırıb. Sosial şəbəkələrin erməni seqmentində qeyd olunur ki, rəsmi Yerevanın uydurmaları daha insanlar tərəfindən qəbul olunmur.

### "Qələbə Əliyevindir"

Prezident İlham Əliyevin Füzuliyə, Cəbrayıla, Zəngilana və Laçına səfərindən sonra sosial şəbəkələrdə paylaşılan statuslardan və verilən şərhlərdən belə qənaətə gəlmək olar ki, artıq ermənilər həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıblar. Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bir neçəsini oxucuların diqqətinə çatdırırıq.

Siyasi ekspert Artur Qriqoryan "Facebook" sosial şəbəkəsində maraqlı paylaşımı ilə nəzərləri özünə çəkib: "İlham Əliyevin Laçına səfərini, verdiyi mesajları internetdən izlədim. Bir daha əmin oldum ki, biabırcasına uduzmuşuq. Əgər erməni olmasaydım, Əliyevin sözlərini alqışla qarşılayardım. O, həmişə olduğu kimi, bu dəfə də Laçından verdiyi mesajlarla gündəmi zəbt etdi. Müharibədən sonra diplomatiya sahəsində bizə yenə zərbələr vurdu. Əliyev növbəti dəfə Laçından bəyan etdi ki, Qarabağ Azərbaycandır. Bizim rəhbərlik isə bu sahədə lazımlı biliklərə malik deyil və yarımçıq cavabları ilə özlərini gülməli vəziyyətə salırlar. Amma reallıq birdir: qələbə Əliyevin tərəfindədir".

Ardı 4-cü səh.



## Azərbaycanın aqrar sektoru pandemiya sınağından uğurla çıxır

2020-ci il dünya iqtisadiyyatı tarixində qlobal itkilərlə nəticələnən ən ağır illərdən biri kimi yadda qalacaq. Koronavirus pandemiyasının fəsadları, yaratdığı problemlər göz qarşısındadır. Yalnız çevik iqtisadi siyasət yeridə bilən ölkələr nisbətən az itkilərlə üzləşir, ən mürəkkəb vəziyyətlərdən daha asan və qısa yollarla çıxa bilirlər.

Məlumdur ki, pandemiya üzündən planetdə sərt qaydalar və qadağalar tətbiq edilmiş və nəticədə əksər sahələr kimi, aqrar sektorun bir çox sahələri də iflic vəziyyətinə düşmüş, sifarişlərin sayı azalmış, bəzi kənd təsərrüfatı məhsullarını hətta bazara çıxarmaq belə mümkün olmamışdır.

Azərbaycanda isə kənd təsərrüfatında işlərin davamlı aparılması üçün ciddi tədbirlər görülmüş, ümumi qadağalardan istisnalar tətbiq edilmiş, o cümlədən kənd təsərrüfatı texnikasının maneəsiz hərəkətinə imkan yaradılmışdır. Beləliklə, fermerlər gündüz də, lazım gələndə gecə də çalışaraq bol məhsul yetişdirib onları daxili və xarici bazarlara çıxarmaq imkanlarını itirməmişlər. Statistik rəqəmlər də ölkənin aqrar sektorunun bu ağır aylarda əvvəl olduğu kimi dinamik inkişaf etdiyini göstərir.

Ardı 5-ci səh.

# İndoneziya Azərbaycanı daim dəstəkləyən ölkədir



*Əvvəli 1-ci səh.*

Əlbəttə ki, müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün güclü siyasi əlaqələr çox faydalı olacaq. Biz siyasi sahədə çox uğurla əməkdaşlıq edirik, beynəlxalq təşkilatlarda, Birləşmiş Millətlər Təşkilatında bir-birimizi dəstəkləyirik. Sözsüz ki, biz səylərimizi Qoşulmama Hərəkatı Təşkilatı çərçivəsində koordinasiya edirik. Biz Qoşulmama Hərəkatında təşəbbüslərimizə dəstək nümayiş etdirdiyinə görə İndoneziyaya minnətdarıq.

Bildiyiniz kimi, Qoşulmama Hərəkatında şərəfli missiya olan sədrliyi üzərimizə götürəndə mən dedim ki, Azərbaycan öz fəaliyyətində, atdığı addımlarda beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Biz işğal illəri ərzində İndoneziya tərəfindən Azərbaycana davamlı dəstəyin göstərilməsinə görə xüsusilə minnətdarıq. İndoneziya BMT Baş Assambleyası, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı tərəfindən qəbul edilmiş dəstək xarakterli qətnamələrə həmişə qoşulmuşdur və Azərbaycanın haqq işini dəstəkləmişdir. Bu dəstək uzun illər ərzində nümayiş etdirilmişdir və münaqişənin həlli üçün bizim mövqeyimizi, çox möhkəm hüquqi bazanın yaradılması prosesini gücləndirmişdir. Münaqişə zamanı hökumətiniz Azərbaycana dəstəyini ifadə etmişdir, biz bunu yüksək qiymətləndiririk. Xarici İşlər Nazirliyi erməni işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına dəstək olaraq bəyanat vermişdir. Biz buna görə sizə çox minnətdarıq. Həmçinin ölkənizin parlamenti, parlamentinizin bir çox üzvləri Azərbaycanla həmrəy olduqlarını ifadə etmiş və dəstəyini bildirmişdir.

Bütün bunlar Azərbaycan xalqına məlumdur və bu, Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirilir. İndoneziya Birləşmiş Millətlər Təşkilatında müzakirələr zamanı müharibə gedən vaxt bizim mövqeyimizə güclü dəstək göstərən Qoşulmama Hərəkatının digər üzvləri arasında olmuşdur. Bildiyiniz kimi, Təhlükəsizlik Şurasının bəzi üzvləri yeni qətnamələrin və qərarların qəbul edilməsi prosesinə başlamaq istəyirdilər. Bu, əslində, bizim ərazilərin işğaldan azad olunması ilə bağlı haqq işimizi dayandırmaq üçün bir cəhd idi. Bu cəhdlər və düşünülmüş bu mətnlər Təhlükəsizlik Şurasının üzv ölkələri tərəfindən qəbul edilmiş qətnamələrə istinad etmirdi. Beləliklə, İndoneziya Qoşulmama Hərəkatının üzvü olan digər dost ölkələrlə birlikdə ərazi bütövlüyümüzün bərpa edilməsinin dayandırılmasına yönəlmiş bu cəhdlərin qarşısını aldı və biz bunu çox yüksək qiymətləndiririk. Biz buna görə minnətdarıq. Bu, həmrəyliyin, dəstəyin və dostluğun ifadəsidir. Beləliklə, bu, bizim əməkdaşlığın siyasi əsasıdır.

Biz indi irəliyə baxmalıyıq. Azərbaycan öz ərazilərini azad etdikdən və ərazi bütövlüyünü bərpa etdikdən sonra iqtisadi əməkdaşlıq üçün böyük imkanlar var, həmçinin işğaldan azad olunmuş torpaqlarda da. Biz planlaşdırdığımız müxtəlif layihələri icra etmək, həmçinin birliyimizi nümayiş etdirmək üçün İndoneziya şirkətlərini tərəfdaşlarımız, podratçılarımız qismində görmək istəyirik. Bu, bizim planımızdır. Sizə burada xoş vaxt keçirməyi, çox fəal iş arzulayıram. Çünki ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün iqtisadi sahədə çoxlu işlər görülməlidir. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı biz yaxşı irəliləyiş görəcəyik.

**Səfir Hildi HAMİD:** Zati-aliləri, İndoneziya ilə əlaqələrə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Zati-aliləri cənab Prezident, İndoneziyanın Azərbaycandakı səfiri təyin olunmağımdan şərəf hissi duyur, vəzifəmin məsuliyyətini tam dərk edirəm. Səfir olduğum müddətdə hər iki ölkənin hökumətləri və xalqları arasında dostluğu və qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirməyə, qarşılıqlı anlaşmanı və dostluğu yaxşılaşdırmağa səy göstərəcəyəm. İndoneziya ilə Azərbaycan arasındakı əlaqələrin yeni səviyyəyə çatdırılması üçün əlimdən gələni əsirgəməyəcəyəm ki, Zati-alinizin və hökumətinizin tam dəstəyi ilə ölkələrimiz arasında əməkdaşlıq davam etdirilsin. Azərbaycan Respublikasına inkişaf, Azərbaycan xalqına isə rifah diləyirəm.

# Azərbaycan ilə Belarus qarşılıqlı əməkdaşlığı davam etdirmək niyyətindədir



*Əvvəli 1-ci səh.*

Əlbəttə, bu cür fəal qarşılıqlı işləri davam etdirmək niyyətindəyik.

Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir. Uzun illər boyu bu münasibətlər böyük potensiala, yaxşı dinamikaya malik olduğunu göstərir. Ali səviyyədə tez-tez əlaqə saxlamağımız, qarşılıqlı səfərlər, əlbəttə, münasibətlərimizin inkişafına böyük təkan verir və biz əməkdaşlığın yaxşı nümunələrini görürük. Bu, ticarət sahəsinə də aiddir. Hərçənd, pandemiya ilə əlaqədar təbii ki, bütün ölkələrdə ümumi daxili məhsulun və əmtəə dövriyyəsinin azalması müşahidə olunur. Buna baxmayaraq, düşünürəm ki, pandemiyadan sonra biz qısa müddətdə vəziyyəti bərpa edəcəyik. Bütövlükdə pandemiyadan əvvəlki son illərdə bizim ticari-iqtisadi münasibətlərin çox fəal dinamikası, idxal və ixrac etdiyimiz malların çeşidinin genişlənməsi müşahidə olunurdu.

Əlbəttə, sənaye kooperasiyası əməkdaşlığın mühüm istiqamətidir. Azərbaycanda Belarus-Azərbaycan müştərək müəssisələrinin yaxşı nümunələri var. Biz hətta üçüncü ölkələrin bazarlarına birlikdə çıxırıq. Fikrimcə, bu istiqamətdə əlavə addımlar atılacaq. Uzun illər boyu uğurla həyata keçirilən hərbi-texniki əməkdaşlıq mühüm sahədir. Biz hərbi-texniki əməkdaşlığın potensialını artırmaqla, o cümlədən yüksək texnologiyalar sahəsində də əməkdaşlıq edirik. Beləliklə, gündəlik yetərincə genişdir. Əminəm ki, Azərbaycanda olduğunuz müddətdə siz qarşılıqlı fəaliyyətin potensialını daha da artırmaq üçün bu məsələlərlə fəal məşğul olacaqsınız. Əlbəttə, biz əvvəl olduğu kimi, bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik. Əminəm ki, belə çoxtərəfli və çoxplanlı birgə fəaliyyət bundan sonra da ölkələrimizin yaxınlaşmasına şərait yaradacaq. Sizə uğurlu iş və Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

**Səfir Andrey RAVKOV:** Sağ olun, cənab Prezident. İcazə verin, ilk növbədə, Sizə Aleksandr Qriqoryeviç Lukaşenkonun ən səmimi salamlarını və xoş arzularını çatdırım, Azərbaycan Respublikasının Prezidenti, onun dostu kimi həm ikitərəfli formatda, həm də beynəlxalq məkanlarda Belarus Respublikasına göstərdiyiniz dəstəyə görə Sizə onun səmimi təşəkkürünü bildirim.

Belarus Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü həmişə bütün məsələlərdə və ardıcıl olaraq dəstəkləyib. Biz atəşkəs barədə bəyanat imzalanması və Azərbaycanın əzəli torpaqlarını öz tərkibinə qaytarması xəbərini böyük ruh yüksəkliyi ilə qarşıladıq.

Hörmətli cənab Prezident, Siz tamamilə düzgün olaraq dediniz ki, dövlət rəhbərləri arasında dostluq və yüksək səviyyədə əlaqələr bu inkişafın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinin rəhnidir. Belarus da bunda maraqlıdır.

Dövlət başçısı Belarus Prezidentinin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

# Yeni Azərbaycan Partiyasının üzvləri Qarabağ Dirçəliş Fonduna 500 min manat vəsait köçürüblər

Yeni Azərbaycan Partiyası (YAP) işğaldan azad edilmiş torpaqlarımızda dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə geniş quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fonduna 500 min manat vəsait köçürüb.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu vəsait partiyanın fəal üzvlərinin təşəbbüsü ilə fərdi ianəçilik hesabına formalaşıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası "Qarabağ Azərbaycandır" devizi ilə davam edən kampaniya çərçivəsində, eləcə də Vətən müharibəsi dövründə Silahlı Qüvvələrə Yardım Fonduna və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fonduna ianə edib, cəbhə bölgəsində erməni vandalizminin qurbanına çevrilmiş 500-dən çox ailəyə humanitar yardım göstərib. YAP tərəfindən həmçinin ermənilərin raket zərbələri nəticəsində Gəncə şəhərində evləri dağılmış 13 ailəyə birdəfəlik maddi yardım göstərilib, bu terror nəticəsində valideynlərini itirmiş uşaqlara 18 yaşına çatana qədər aylıq 300 manat məbləğində təqaüd ödənilməsi barədə qərar qəbul edilib.

Yeni Azərbaycan Partiyası Vətən müharibəsi dövründə döyüşən əsgər və zabitlərimizin maddi təminatının daha da gücləndirilməsi, eləcə də yaralılara göstərilən tibbi xidmətə dəstək istiqamətində təqdirəlayiq humanitar tədbirlər həyata keçirib. Bütövlükdə, Yeni Azərbaycan Partiyası tərəfindən bu aksiyalara 455 min manat vəsait sərf edilib.

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2016, № 2, II kitab, maddə 215; 2017, № 2, maddə 154; 2018, № 2, maddə 164; 2019, № 1, maddə 39; 2020, № 4, maddə 391) 2.2-ci maddəsində "8 il" sözləri "11 il" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2021-ci il*

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 259-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 259-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. İşğaldan azad edilmiş kənd ərazilərindəki yaşayış məntəqələrinin bərpası ilə bağlı ərazi planlaşdırılması işlərinin daha səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nda bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müvafiq dəyişikliklər etsin.

2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 259-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2021-ci il*

# Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək

Fevralın 18-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun, fevralın 19-da isə Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri David Zalkalianinin Azərbaycana rəsmi səfərləri nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi məlumat yayıb.

Məlumatda deyilir ki, bu il fevralın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri David Zalkaliani və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun iştirakı ilə 9-cu üçtərəfli görüşün keçirilməsi planlaşdırılır.

# Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının videokonfrans formatında növbəti iclası keçirilib.




Bu barədə AZƏRTAC-a Dövlət Komissiyasının İşçi qrupundan bildiriblər. Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə fevralın 16-da keçirilmiş iclasda Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı çərçivəsində 2020-ci ildə görülən işlər, əldə edilən nəticələr, qarşıda duran vəzifələr müzakirə olunub.

Komissiyanın sədri qarşıda duran vəzifələrin icrası, o cümlədən ixtisaslaşmış beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığın davam etdirilməsi, qanunvericilik aktlarının təkmilləşdirilməsi, bu sahələr üzrə nəzarətin, müvafiq mövzuda təbliğat-təşviqat məqsədli maarifləndirmə işlərinin gücləndirilməsinə dair tapşırıqlar verib.

# 2021-ci ildə dövlət büdcəsindən siyasi partiyalara ilk vəsait ayrılıb

Siyasi partiyalara maliyyə yardımının göstərilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 4 milyon manat vəsait nəzərdə tutulub.

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ilin birinci rübü üzrə 10 siyasi partiyaya - Yeni Azərbaycan Partiyasına, Vətəndaş Həmrəyliyi Partiyasına, Ana Vətən Partiyasına, Demokratik İslahatlar Partiyasına, Azərbaycan Demokratik Maarifçilik Partiyasına, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasına, Böyük Quruluş Partiyasına, Vəhdət Partiyasına, Respublikaçı Alternativ Partiyasına və Milli Cəbhə Partiyasına ümumilikdə 857,5 min manat məbləğində vəsait ödənilib.

Vəsaitin ayrılması "Siyasi partiyalar haqqında" qanunun 17-1-ci maddəsinə uyğun aparılır.

# XİN: "Ermənistan səylərini üçtərəfli bəyanatın icrası ilə bağlı konkret addımların atılmasına yönəltsə, daha faydalı olar"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva yerli KİV-in Ermənistan Xarici İşlər Nazirliyinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın 9-cu bəndi ilə bağlı şərhinə dair sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva cavabında deyib: "Ermənistan Xarici İşlər Nazirliyinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın bəndlərini şərh etməklə məşğul olmaqdansa, səylərini bu bəyanatın icrası ilə bağlı konkret addımların atılmasına yönəltməsi daha faydalı olardı. Hazırda sözdə boş bəyanatların verilməsi deyil, əməldə dövlətlərimizə və ümumilikdə bölgəyə sülh, əmin-amanlıq, inkişaf və tərəqqinin gətirilməsi vaxtıdır".

# Azərbaycan-İran münasibətləri yüksələn xətlə inkişaf edir

Fevralın 16-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan İran İslam Respublikası İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctəba Zünnurinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ölkələrimiz arasında sıx münasibətlərdən söz açan Səməd Seyidov xüsusilə 44 günlük Vətən müharibəsi dövründə və müharibədən sonra İran İslam Respublikasının Azərbaycanın haqq işini və ərazi bütövlüyünü bərpa etməsini dəstəklədiyini diqqətə çatdıraraq bunun ölkəmiz üçün tarixi əhəmiyyətə malik olduğunu vurğulayıb. Bildirib ki, İran tərəfdən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən çıxışlar və bəyanatlar həm müharibədən öncə, həm də müharibə zamanı və sonra dəfələrlə verilib. Xüsusilə noyabrın 3-də və 4-də İran liderlərinin verdikləri bəyanatlar Azərbaycan xalqı arasında yüksək rəğbət qazanıb və Azərbaycan-İran münasibətlərinə ciddi təsir göstərib. Təsadüfi deyil ki, torpaqlarımız işğaldan azad olunduqdan az sonra həmin bölgələri, Xudafərin körpüsünü ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-İran sərhədini dostluq sərhədi adlandırıb və bu sərhədin iki xalq arasında yalnız və yalnız inkişafa və dostluğa xidmət edəcəyini xüsusi vurğulayıb.

Çıxışında bir sıra mühüm məqamlara toxunan komitə sədri pandemiya şəraitində də ölkələrimizin bir-birini dəstəklədiklərini qeyd edib. Bildirib ki, hazırda bölgədə yeni reallıq formalaşıb və həmin reallıq parlamentlərimiz arasındakı əlaqələrin genişlənməsinə imkan yaradacaq. Səməd Seyidov deyib ki, Milli Məclisin sədri xanım Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamenti İranla əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirmək niyyətindədir.

Görüşdə nümayəndə heyətinin başçısı, İran İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctəba Zünnuri İran parlamentinin rəhbərliyi və bütün deputatlar, İran xalqı adından Azərbaycan xalqına böyük Zəfər münasibətilə təbriklərini çatdırıb. Beynəlxalq miqyasda İrana qarşı məsələlərdə Azərbaycanın İrana verdiyi dəstəyə görə minnətdarlıqlarını ifadə edib.

Müctəba Zünnuri ölkəmizlə hər sahədə daha sıx əməkdaşlıq əlaqələri qurmaq niyyətində olduqlarını bildirib. Qarabağın yenidən qurulmasında İran şirkətlərinin mühüm layihələrlə iştirak etmək arzusunu, işğal dövründə ermənilər tərəfindən dağıdılmış Azərbaycan məscidlərinin bərpasını təmənnasız həyata keçirmək istədiklərini vurğulayıb. Tikinti-quruculuq işləri üçün böyük potensiala malik olduqlarını deyib. Ölkələrimiz arasında inşa olunan nəqliyyat dəhlizlərindən və s. danışıb. Qeyd edib ki, coğrafi mövqeyinə görə Azərbaycan Şərq ilə Qərbin qovuşuğunda yerləşir və bu iki qütbü birləşdirə bilər.

Çıxışlarda Azərbaycan-İran münasibətlərinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu xüsusi vurğulanıb. Qeyd olunub ki, Azərbaycan-İran əlaqələri yüksələn xətlə inkişaf edir.

Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupu rəhbərinin müavini Eldar İbrahimov Azərbaycanın yenicə dövlət müstəqilliyini qazandığı XX əsrin 90-cı illərində ölkələrimiz arasında dostluq və qardaşlığın təzahürü olan hadisələri yada salıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Elman Nəsirov və Sahib Alıyev əməkdaşlığımızın dünəni və sabahı barədə fikirlərini bölüşüblər.

Sonra İran İslam Şura Məclisinin üzvləri Mahmud Abbaszadə və Əli Əlizadə dostluq və əməkdaşlığa yönəlik xoş sözlərini və təkliflərini çatdırıblar.

Görüşdə İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

# Mədəniyyət naziri ölkəmizdə fəaliyyət göstərən televiziya kanallarının rəhbərləri ilə görüşüb



Fevralın 16-da Milli İncəsənət Muzeyində Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ilə ölkəmizdə fəaliyyət göstərən televiziya kanalları rəhbərlərinin görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Rövşən Məmmədov ("Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti), Mirşahin Ağayev (Real TV), Balakişi Qasımov (İctimai Televiziya), Kamil Şahverdiyev (Space TV), Murad Dadaşov (Xəzər TV), Azər Xəlilov (Azad Azərbaycan TV), Vüqar Xəlilov (CBC TV), Radik İsmayılov (ARB TV) və Lider TV-nin nümayəndəsi Nazxanım Bağırova iştirak ediblər.

Əvvəlcə görüş iştirakçıları Milli İncəsənət Muzeyinin "Azərbaycan incəsənəti minilliklər boyu" adlı daimi sərgisi ilə tanış olublar. Ekspozisiyada Azərbaycanın qədim maddi və mənəvi mədəniyyətini özündə əks etdirən ilkin və sonrakı dövrlərdə təkmilləşən tətbiqi və təsviri sənət nümunələri sərgilənir.

Sərgidə nümayiş olunan miniatür əsərlərə baxış zamanı nazir Anar Kərimov Azərbaycan Prezidentinin sərəncamı ilə bu ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan olunduğunu, eyni zamanda ötən il dekabrın 16-da Türkiyə, Azərbaycan, İran və Özbəkistanın birgə hazırladığı "Miniatür sənəti" mədəni elementinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bunları nəzərə alaraq miniatür sənətinə diqqət artırılmalı, televiziyalarımız da bu sənətlə məşğul olan insanları cəmiyyətə tanıtmalıdır.

Sonra görüş "dəyirmi masa" formatında fikir mübadiləsi ilə davam edib. Milli televiziyanın yaranması günü münasibətilə televiziya rəhbərlərini təbrik edən Anar Kərimov bildirib ki, cəmiyyətin inkişafında, milli həmrəyliyin gücləndirilməsində televiziyaların böyük rolu var: "Rəqəmsal platformaların daha çox vüsət aldığı bir vaxtda statistika göstərir ki, ənənəvi media vasitələri öz mövqelərini qoruyub saxlamaqda davam edir. Bu gün televiziyalar ictimai fikrin formalaşmasında, müstəqil dövlətçiliyimizin təbliğində mühüm rol oynayır. Bunun bariz nümunəsini biz 44 günlük Vətən müharibəsi zamanı televiziyalarımızın fəaliyyətində görə bildik".

Daha sonra Anar Kərimov Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahatlardan söz açıb. Nazir həmçinin dövlət başçısının tapşırığına uyğun olaraq mədəniyyət sahəsində həyata keçirilən islahatların və yeniliklərin ictimaiyyətə təqdim edilməsi prosesinə televiziyaların da dəstək göstərməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə mədəniyyətin bütün sahələrinin işıqlandırılmasının diqqətdə saxlanılması, o cümlədən Qarabağın mədəni irsinin təbliği (Mədəniyyət Nazirliyinin "Mədəniyyəti Qarabağa qaytarırıq" layihəsi) məsələləri müzakirə edilib.

Anar Kərimov mədəniyyət sahəsinin təbliği ilə bağlı görüş iştirakçılarının təkliflərini dinləyib. Müzakirə zamanı televiziyaların film nümayişi siyasətinə yeni baxış, nazirliklə televiziyalar arasında işçi qrupun yaradılması, eləcə də birgə fəaliyyət planının hazırlanması ilə bağlı fikirlər səsləndirib.

Diskussiyalarda vətənpərvərlik mövzusunda verilişlərin hazırlanması, mədəniyyətin müxtəlif sahələrində insan resurslarının inkişafı, cizgi filmlərinin istehsalı və yayımı məsələlərinə toxunulub. Kino sahəsindəki yeniliklər və bu sahədə görüləcək işlər, eləcə də televiziyaların "Azərbaycanfilm" kinostudiyası ilə əməkdaşlıq məsələləri də görüşün müzakirə obyektlərindən olub.

Görüşdə kino, teatr, sirk sənəti, digər sahələr üzrə kadrların hazırlanması kimi məsələlərə diqqət yönəlib. Nazir yaxın zamanlarda film.az platformasının yaradılacağını diqqətə çatdıraraq qeyd edib ki, bu platforma həm xarici, həm də yerli kanal və şirkətlərin Azərbaycanda film və pavilyon çəkilişlərindən asanlıqla istifadəsinə şərait yaradacaq. Görüşdə həmçinin "Nizami Gəncəvi ili" ilə bağlı tədbirlər planı, Zəfər muzeyinin yaradılması və digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Televiziya rəhbərləri müəyyən məqamlarla bağlı fikirlərini bölüşüblər. Vurğulanıb ki, "Mədəniyyət" kanalı Mədəniyyət Nazirliyi ilə əməkdaşlıq edir və bundan sonra da nazirliyin platforması kimi birgə layihələri davam etdirəcək. Nazirlik tərəfindən yaradılacaq Azərbaycan Kino Agentliyi ilə əlaqələrin qurulması da müsbət qarşılanan fikirlər sırasında olub.

Həmçinin regional mədəniyyət idarələri ilə sıx əməkdaşlıq, ali və peşə təhsili müəssisələrində operator, səs rejissoru və digər sənət sahələrinin gənclər arasında populyarlaşdırılması və inkişafı, teatrlarda milli satirik ruhlu tamaşaların müasir yanaşmalarla təqdim edilməsinin əhəmiyyəti qeyd edilib.

Görüş iştirakçıları Əqli Mülkiyyət Agentliyi tərəfindən musiqi əsərlərinin lisenziyalaşdırılmasının əhəmiyyətini vurğulayıblar.

Qeyd olunan məsələlərə münasibət bildirən nazir verilən təkliflər üzrə yaxın zamanlarda işçi qrupunun yaradılacağını və bu istiqamətdə artıq müəyyən addımların atıldığını deyib. Bildirib ki, səsləndirilən bütün təkliflər nəzərdən keçiriləcək. Təkliflərin reallaşdırılması həm nazirliyin, həm də televiziyaların fəaliyyətinə töhfə verəcək.

Sonda nazir Anar Kərimov səmimi və faydalı fikir mübadiləsinə görə televiziya rəhbərlərinə təşəkkür edib.

# Milli Məclisdə İranın parlament nümayəndə heyəti ilə görüş olub

Fevralın 16-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanda səfərdə olan İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komitəsinin sədri Müctəba Zünnurinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ziyafət Əsgərov Azərbaycanın müstəqilliyinin bərpasından sonra dövlətlərimiz arasında qurulan və indi də davam edən dostluq münasibətlərinin bundan sonra da inkişaf edəcəyini vurğulayıb.

İki ölkə arasındakı yüksəksəviyyəli siyasi münasibətlərdə dövlətlərimizin rəhbərlərinin böyük xidmətlərini vurğulayan Milli Məclisin komitə sədri dövlət başçılarının qarşılıqlı səfərləri zamanı imzalanan hüquqi sənədlərin münasibətlərimizin inkişafı üçün güclü hüquqi baza yaratdığını diqqətə çatdırıb.

Ölkələrimizin parlamentləri arasındakı münasibətlərə də toxunan Ziyafət Əsgərov əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və parlament dostluq qruplarının əhəmiyyətindən söz açıb, pandemiya səbəbindən səngiyən qarşılıqlı səfərlərin pandemiyadan sonra yenidən bərpa olunması zərurətini qeyd edib, müştərək şəkildə həyata keçirilən layihələrin xalqlarımızın rifahına xidmət etdiyini vurğulayıb.

İran İslam Respublikası İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctəba Zünnuri, ilk növbədə, Azərbaycan xalqını Vətən müharibəsində əldə etdiyi Qələbəyə görə təbrik edərək müharibədə şəhid olanlara Allahdan rəhmət, ailələrinə səbir diləyib.

Azərbaycan və İranın ortaq tarixi və mədəni dəyərlərini yüksək qiymətləndirən qonaq əlaqələrin daha da inkişaf etdirilməsi üçün əlverişli şəraitin və potensialın mövcud olduğunu vurğulayıb, bu işdə parlamentlərin mühüm töhfə verə biləcəyini ifadə edib.

Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin inkişaf etdirilməsində birgə səylərin əhəmiyyətinə toxunan qonaq İranın Azərbaycan ilə bir çox sahələrdə əməkdaşlığı genişləndirməyə hazır olduğunu bildirib. İşğaldan azad edilmiş ərazilərin bərpasında və yenidən qurulmasında maraqlı olan İran şirkətlərinin təcrübəsindən də söz açan Müctəba Zünnuri ölkəsinin bir sıra şirkətinin bu layihələrdə iştirak arzusunu dilə gətirib.

Ziyafət Əsgərov Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında Ermənistanın işğal dövründə törətdiyi dağıntıların inanılmaz dərəcədə böyük olduğunu diqqətə çatdırıb və həmin ərazilərin yenidən bərpasının və inkişaf etdirilməsinin Prezident İlham Əliyev tərəfindən prioritet elan edildiyini bildirib.

Ərazilərin bərpasında digər dost ölkələr kimi İrana da üstünlük verildiyini vurğulayan Ziyafət Əsgərov İran xalqına və rəhbərlərinə bu məsələdə haqqı və ədaləti müdafiə etməklə Azərbaycana dəstək olduqlarına görə bir daha təşəkkür edib.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvləri - Arzu Nağıyev və Kamal Cəfərov, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

# İlham Əliyev Qarabağın tarixi şöhrətini tezliklə qaytaracaq

*Əvvəli 1-ci səh.*

## Birinci "ağıllı kənd" layihəsi Zəngilanda icra ediləcək

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar. Zəngilana gedərkən avtomobili özü idarə edən ölkə rəhbəri söylədi ki, işğaldan azad edilmiş torpaqların bərpası prosesi artıq başlayıb. Birinci "ağıllı kənd" layihəsi də məhz Zəngilan rayonunda icra ediləcək.

Dövlət başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsi barədə məlumat verildi. Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Xatırladaq ki, ölkə rəhbəri öz çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. İşğaldan azad olunmuş ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə bərpa edilməsi və yenidən qurulması, xüsusən də bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması həmin rayon və bölgələrimizin ən yüksək standartlara cavab verən müasir yaşayış məkanlarına çevriləcəyindən xəbər verir. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir.

## "Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik"

Daha sonra dövlət başçısı, birinci xanım və qızları Leyla Əliyeva Laçın rayonuna yola düşdülər. Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan ölkə rəhbəri terrorçu ermənilərin ərazilərimizi tərk edərkən olub-qalan infrastruktur obyektlərini dağıtdıqlarını qeyd etdi.

"Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır. Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik". Prezident və xanımı Laçına məhz bu sözlərlə daxil oldular.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçının Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı. Sonra Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etdi və stansiyanı işə saldı.

Dövlət rəhbərinin tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.



"Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisə kimi qeyd olunmalıdır. Çünki bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk layihədir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

İşğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisində də çoxsaylı su elektrik stansiyalarının tikiləcəyini və bunun üçün çox əlverişli şərtlərin olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, azad edilmiş bütün torpaqlarımızda bərpaolunan enerji növlərinin və yerlərinin müəyyənləşdirilməsi prosesinə başlanması üçün göstəriş verib: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik".

## Bəsitçay təbiət qoruğunun bərpasına start verildi

Ardınca dövlət başçısı, birinci xanım və qızları Leyla Əliyeva Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər. Ermənilər tərəfindən ekoloji terrora məruz qalmış qoruqda çinar ağacları əkdilər, Bəsitçaya balıq buraxdılar.

Prezident xatırlatdı ki, 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmış Bəsitçay qoruğunda 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu: "Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik".

Son olaraq İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə gəldilər. Burada Prezidentə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri Böyük Qayıdışın ilk addımları kimi qiymətləndirilir. Bu vaxta qədər işğaldan azad olunmuş torpaqlarımızda, sadəcə, Azərbaycan bayrağının qaldırılmasının qürurunu yaşayırdıqsa, ölkə başçısının budəfəki səfərində reallaşdırılan ilkin infrastruktur layihələrinin açılışının və təməlqoyma mərasimlərinin keçirilməsinin şahidi olduq. İşğaldan azad edilmiş ərazilərdə intensiv şəkildə həyata keçirilən bərpa-quruculuq işləri çərçivəsində inşasına başlanılan mühüm strateji obyektlərin, müəssisələrin təməlinin Prezident İlham Əliyev tərəfindən şəxsən qoyulması görülən işlərin xüsusi diqqət mərkəzində saxlanıldığından xəbər verir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etməklə bu ərazilərin Azərbaycana aid olduğunu, xalqımızın öz torpaqlarına artıq əbədi döndüklərini növbəti dəfə bütün dünyaya açıq şəkildə bəyan etdi.

Bütün bunlar həm də onu deməyə əsas verir ki, Azərbaycan çox qısa müddətdə ərazi bütövlüyünü bərpa etdiyi kimi, məskunlaşmanı və Böyük Qayıdışı da tezliklə təmin edəcək. Ərazi bütövlüyümüzü bərpa edən İlham Əliyev ən qısa zamanda Qarabağı da cənnətə çevirəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Milli Məclisin Regional məsələlər komitəsinin videokonfrans formatında iclası keçirilib

Fevralın 16-da Milli Məclisin Regional məsələlər komitəsinin videokonfrans formatında iclası keçirilib. Komitənin sədri Siyavuş Novruzov bildirib ki, gündəliyə 3 məsələ daxil edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda əvvəlcə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi ilə bağlı məsələyə baxılıb.



Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov diqqətə çatdırıb ki, 2020-ci il ərzində bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin yaxşılaşdırılması, bələdiyyələr tərəfindən yol verilmiş pozuntuların aradan qaldırılması və ya qarşısının alınması ilə bağlı zəruri addımlar atılıb, mövcud qanunvericiliyə müvafiq dəyişikliklər olunub. Hesabat dövründə Ədliyyə Nazirliyində 79 min 858 bələdiyyə aktına inzibati nəzarət qaydasında baxılıb, 76 min 433 akt (95,7 faiz) qanunvericiliyə uyğun hesab edilib. Normativ hüquqi aktların tələblərinə zidd olan 2939 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün təkliflər verilib, digər 486 akt isə icraatdadır.

Qeyd edilib ki, ötən il bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 3503 müraciətdən 3206-na baxılıb, 156-sı aidiyyəti üzrə göndərilib, 141 müraciət isə baxılmaqdadır. Bu müddətdə 751 vətəndaş qəbul edilib, onların müraciətləri ilə əlaqədar zəruri tədbirlər görülüb.

Bildirilib ki, bələdiyyələrin fəaliyyətinə həyata keçirilən inzibati nəzarət tədbirləri nəticəsində ümumilikdə 10 min 478 hektar torpaq sahəsinin qanunsuz ayrılması barədə bələdiyyə aktlarının ləğv edilməsi ilə bağlı nazirlik tərəfindən təkliflər və ya məhkəmələrə iddialar verilib. Nəticədə 396 hektar torpaq sahəsinin mülkiyyətə, 6850 hektar torpaq sahəsinin icarəyə və 971 hektar torpaq sahəsinin istifadəyə verilməsi haqqında qanunsuz qərarlar ləğv edilib. Bütövlükdə 8217 hektar torpaq sahəsinin bələdiyyə mülkiyyətinə qaytarılması təmin olunub.

Hesabat dövründə bölgələrdə bələdiyyə üzvü və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə 86 tədbir keçirilib.

Sənəddə deyilir ki, dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi məqsədilə nəzərdə tutulmuş tapşırıqların icrası istiqamətində də bir sıra tədbirlər görülüb. Həyata keçirilən bütün tədbirlər ölkəmizdə yerli özünüidarəetmə institutunun təkmilləşdirilməsinə, müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, yerli əhali arasında bələdiyyələrə etimadın artmasına yönəlib.

Sonra komitə üzvü Səttar Möhbalıyev gündəlikdəki növbəti iki məsələni təqdim edib. Məlumat verilib ki, "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əsasən, Şərur rayonunun inzibati ərazi bölgüsünə daxil olan Dəmirçi kənd inzibati ərazi dairəsi tərkibindəki Dəmirçi kəndi Sədərək rayonunun inzibati ərazi bölgüsünə daxil edilir. Dəmirçi kənd inzibati ərazi dairəsi Şərur rayonunun tabeliyindən çıxarılaraq Sədərək rayonunun tabeliyinə verilir. Şərur rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 4444 hektar torpaq sahəsi Sədərək rayonunun inzibati ərazisinə birləşdirilir. Qeyd edilib ki, bununla bağlı "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda da müvafiq düzəlişin edilməsi nəzərdə tutulub.

Bildirilib ki, bu dəyişikliklər dövlət idarəçiliyinin təkmilləşdirilməsi, ərazi vahidlərinin sosial-iqtisadi problemlərinin həlli, vətəndaşların və dövlət orqanlarının qarşılıqlı münasibətlərinin daha da yaxşılaşdırılması məqsədi ilə aparılır.

Onlayn iclasda çıxış edən komitə sədri Siyavuş Novruzov, komitənin üzvləri Nizami Cəfərov, Məzahir Əfəndiyev, Kamran Bayramov, Cavid Osmanov, Elşən Musayev bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi barədə fikirlərini bildirib, bir sıra təkliflər səsləndiriblər. Deputatlar Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə nəzərdə tutulan dəyişiklikləri də dəstəkləyiblər.

Müzakirələrin sonunda gündəlikdəki hər üç sənəd Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Tədbirdə komitə üzvləri Emin Hacıyev, Malik Həsənov, Səbinə Xasayeva, Aqil Məmmədov, Tahir Rzayev, Əliabbas Salahzadə də iştirak ediblər.

# Yeni konsepsiya - yeni yüksəliş zəmanəti

## Milli prioritetlər Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə qədəm qoyması üçün real zəmin yaradır

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın bugünkü uğurlarının təməlində mütərəqqi islahatlar dayanır. İqtisadiyyatın liberallaşması və geniş iqtisadi islahatlar dayanıqlı inkişafı təmin edib.

Son 17 ildə sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçən Azərbaycanın iqtisadiyyatı yüksəlib, beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, cəmiyyətdə dövlətçilik ənənələri güclənib. Əlbəttə, bütün bunlar ölkənin hərbi qüdrətinə də müsbət təsir göstərib. Torpaqlarımızın işğaldan azad edilməsində və ölkəmizin ərazi bütövlüyünün bərpasında bu amillərin həlledici rolu olub. Azərbaycanın hərb və diplomatiya sahəsində əldə etdiyi uğurlar bu gün yeni, sistemli və davamlı islahatlara yol açır.

### Növbəti 10 ilin inkişaf yolu

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb. İslahatlarla yanaşı, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesinə start verilib. Bütün bu məsələlər Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasında aydın şəkildə öz əksini tapıb. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılacaq (dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi) beş milli prioritet əlbəttə ki, Vətən müharibəsində ərazi bütövlüyünü təmin edən Azərbaycanın gələcək yüksəlişinə hədəflənib.

Sadalanan prioritetlər iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmasını qarşıya məqsəd qoyur. Qarşıdakı dövrdə neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın əsas istiqamətinə çevrilməlidir. Çünki yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər.

Bu prioritetlər dövlətin, cəmiyyətin və fərdlərin inkişafını, vətəndaş rifahının daha da yaxşılaşdırılmasını təmin etməyə hədəflənib. Yeni nəzərdə tutulan proqramların icrası nəticəsində siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə nailiyyətlər qazanılacaq və bu da Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə qədəm qoymasına, sosial rifaha malik dövlət olmasına möhkəm əsaslar yaradacaq.

Bu sənəddə əksini tapan milli maraqlar və strateji planlamanın vəhdəti, ilk növbədə, ölkəmizin gələcək inkişafına mühüm töhfələr verəcək, regionun yeni siyasi-iqtisadi reallığını təmin edəcək. Milli prioritetlərin təsdiq edilməsi haqqında sərəncamda da qeyd edilib ki, uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli, multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovuşuğunda olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

### Hədəf dövlətimizin daha da qüdrətlənməsidir

Milli prioritetlər növbəti 10 il ərzində Azərbaycanın qarşısında həlli vacib olan istiqamətləri özündə əks etdirir. Ölkəmizin yeni inkişaf mərhələsinə yüksəldilməsi ilə bağlı çox mühüm yol xəritəsi olan yeni milli prioritetlər daha qüdrətli dövlətin və yüksək rifah cəmiyyətinin qurulmasına hədəflənib.

Mühüm hədəflərdən biri də işğaldan azad edilmiş torpaqlarımızda bərpa, quruculuq işlərinin sistemli şəkildə reallaşması və yüksəliş dövrünün başlanmasıdır. Sənəddə göstərildiyi kimi, burada reallıq Böyük Qayıdışa uyğun proqramların hazırlanması və icrasıdır. Bu hədəf üzrə işlər tamamilə yeni reallıqlar əsasında Azərbaycanın inkişafında xüsusi mərhələyə qədəm qoymaq deməkdir. Çünki 30 ilə yaxın müddətdə işğal altında qalmış ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda beynəlxalq və regional əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin fəaliyyətə başlaması həm Azərbaycan iqtisadiyyatına əlavə güc qatacaq, həm də bölgədə qarşılıqlı faydalı əməkdaşlıq mühitinin formalaşmasını şərtləndirəcək.

Azərbaycan dövlətinin əsas hədəflərindən biri də işğaldan azad olunmuş ərazilərimizdə əhalinin məskunlaşma səviyyəsini işğala qədərki səviyyəyə çatdırmaqdır. Əlbəttə ki, buna nail olmaq üçün bütün imkanlar, o cümlədən iqtisadi potensial və insan resursları mövcuddur. Ən əsas amil isə odur ki, keçmiş məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmağı səbirsizliklə gözləyirlər. Azərbaycan xalqı, dövləti üçün bu torpaqlara qayıdış həm siyasi, həm mənəvi-psixoloji, həm də iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir.

Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Azərbaycanın region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyənləşdirilməsində rolunu daha da gücləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan "2021-ci il Qadın ili"nə öz töhfəsini verəcək

ISESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" beynəlxalq günü münasibətilə fevralın 11-də keçirilən videokonfransda aktual məsələlər müzakirə olundu. Konfransda Birinci vitse-prezident Mehriban Əliyevanın fəxri qonaq qismində iştirakı Azərbaycanın bu platformada ali səviyyədə təmsil olunması demək idi. Eyni zamanda bu, Azərbaycanla ISESCO arasında yüksək səviyyəli əlaqələrin göstəricisidir.



Ümumiyyətlə, Azərbaycan tərəfdaşlıq etdiyi bütün beynəlxalq təşkilatlarla səmərəli-faydalı əməkdaşlıq qurub. ISESCO-nun fəaliyyət prinsipinə uyğun olaraq ənənəvi dəyərlərin təbliği və mühafizəsi sahəsində Azərbaycan dünya üçün nümunə sayılan bir model yaradıb. Qadınların elm və təhsildə rolu, eyni zamanda təhsildə gender bərabərliyinin təmin olunması sahəsində də Azərbaycan yüksək nümunə sərgiləyir. Birinci vitse-prezident Mehriban Əliyevanın videokonfransda qadınların savadlılıq səviyyəsinə dair səsləndirdiyi yüksək göstəricilərdən ibarət statistika bunu bir daha təsdiqləyir.

Bu gün Azərbaycan qadını ictimai-siyasi həyatda layiqli mövqeyini tutaraq ölkəmizin mədəniyyətinə, elminə, təhsilinə, səhiyyəsinə böyük töhfə verməkdədir. Ölkəmizdə birinci vitse-prezidentlik institutunun yaradılması, dövlət idarəçiliyində gender bərabərliyinin tam təmin edilməsi Azərbaycanın bu sahədə geniş təcrübəyə malik olduğunu göstərir. Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər. Hakimiyyətin bütün qollarında zərif cinsin nümayəndələri nüfuzlu postlar tutur.

Elm, texnologiya və innovasiyanın cəmiyyətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevrildiyi bir vaxtda qadınların təhsili, onların elm sahəsində iştirakının yeni çağırışlara uyğunlaşdırılması da zərurətə çevrilir. Azərbaycan bütün humanitar məsələlərdə olduğu kimi, bu prosesdə də əsas təşəbbüskar qismində çıxış edir. ISESCO-nun Azərbaycanda təsis edəcəyi regional nümayəndəlik də bu sahədə əməkdaşlığı dərinləşdirmək baxımından əhəmiyyətlidir. Mehriban Əliyevanın da söylədiyi kimi, ictimai-siyasi sahədə, o cümlədən elm sahəsində uğur qazanan qadınlar təbii ki, yeni yetişən gənc nəsil üçün ilham mənbəyidir. Şərqdə ilk dəfə seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını bu gün XXI əsrdə yüksək əxlaqa malik, intellektual, milli-mənəvi dəyərlərə, bəşəri prinsiplərə sadiqliyi ilə özünəməxsus portretini qoruyub saxlayıb.

Əminliklə söyləmək olar ki, islam dünyasının ən layiqli üzvü kimi Azərbaycan qadını malik olduğu dəyərlərlə "2021-ci il Qadın ili" çərçivəsində bu prosesə öz töhfəsini verəcək.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

# Rusiyalı ekspert: "Münxendə açıq dialoqun yekunu Azərbaycan Prezidentinin qəti qələbəsi oldu"



"2020-ci il fevralın 15-də Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların yenidən başlanmasından əvvəl, lakin rəsmi Yerevanın "Artsax" (Dağlıq Qarabağ) - Ermənistandır və nöqtə" şüarını elan etməsindən sonra İlham Əliyevin və Nikol Paşinyanın müharibədən əvvəlki sonuncu birbaşa dialoqu mahiyyətcə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üzrə danışıqların finalı oldu".

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində ekspert, Rusiyanın "Vestnik Kavkaza" informasiya agentliyinin baş direktorunun müavini Andrey Petrov bildirib.

Ekspert qeyd edib ki, o vaxt bunu qabaqcadan bilmək çətin idi. Lakin bugünkü mövqedən baxanda görmək olar ki, Münxen görüşü ATƏT-in Minsk qrupunun himayəsi ilə 30 illik siyasi-diplomatik səylərə yekun vurdu.

A.Petrov deyib: "Görüş, ilk növbədə, açıq xarakterinə görə özü-özlüyündə unikal idi: Azərbaycan və Ermənistan rəhbərləri bağlı qapılar arxasında deyil, beynəlxalq forumda panel diskussiyası formatında görüşürdülər və həm forum iştirakçıları qarşısında, həm də onların dialoqunu onlayn izləyən internet auditoriyası qarşısında çıxış edirdilər. Beləliklə, onlar Dağlıq Qarabağ münaqişəsi üzrə təkcə öz dövlətlərinin mövqelərini deyil, həm də özlərinin xeyrinə olan dəlilləri maksimal geniş şəkildə səsləndirmək fürsəti qazandılar. Eyni zamanda artıq bəlli idi ki, yeni Ermənistan - Paşinyan Ermənistanı Qarabağ məsələsinə köhnə, Koçaryan-Sarkisyan müxalifətçi yanaşmasını saxlamağa qərar verib. Bu, danışıqlar prosesini növbəti dəfə çıxılmaz vəziyyətə doğru aparırdı və Münxendə Əliyev ilə Paşinyanın görüşü belə yanaşmanın perspektivsiz olmasını bütün dünyaya nümayiş etdirmək üçün bir şans idi".

Agentliyin həmsöhbətinin fikrincə, Münxendə açıq dialoqun yekunu faktları əminliklə səsləndirən və rəsmi beynəlxalq sənədlərə istinad edən Azərbaycan Prezidentinin qəti qələbəsi oldu. Prezident Əliyevin sübutları ona görə tutarlı idi ki, Ermənistanın baş naziri mifik zamanlardan danışarkən hamıya məlum olan feykləri fakt kimi qələmə verməyə çalışır və sənədlərin müddəalarını açıq şəkildə yalandan interpretasiya edir, bununla da cavabında təcavüzkar siyasətdən miras qalmış bəhanələrin tam dəyərə malik olmamasını ifşa edirdi. Prezident İlham Əliyev Nikol Paşinyanın dediyi hər yalanı asanlıqla təkzib edərək dünyaya göstərirdi ki, Ermənistan yalnız bir şeyə - onun tərəfindən törədilən hərbi cinayətlərə görə cəzasızlığa cəhd edir. Nəticədə, bu dialoqun sonuna yaxın tamaşaçılar erməni liderinə sadəcə gülürdülər, çünki o, yalnız məsxərəyə qoyulmağa layiq idi.

Ekspert vurğulayıb: "Azərbaycan və Ermənistan arasında jurnalist nümayəndələrinin payız mübadiləsindən, uzun müddət ərzində ilk dəfə olaraq Azərbaycan nümayəndələrinin işğal edilmiş ərazilərə ilk səfərindən əvvəl keçirilən görüş keçmiş qeyri-konstruktiv proseslə yaxın gələcəkdə normal dialoqa çıxa bilmək imkanı arasında bir növ körpü idi. Lakin sonrakı aylar göstərdi ki, Ermənistanın mövqeyində yaxşılığa doğru heç nə dəyişməyib, əksinə, Paşinyan növbəti dəfə darmadağın olandan sonra Yerevanın işğalçı siyasəti yalnız aqressivləşdi, hərbi sahədə isə gərginliyin genişləndirilməsi kursuna istiqamət verildi. Əgər erməni diplomatlar artıq birbaşa hər hansı vəziyyəti, hətta ən rəsmi, danışıqlar masası arxasında əmələ gələn, o cümlədən Rusiya tərəfindən dəstəklənən vəziyyəti təkzib edirdilərsə, işğalçı qoşunlara "yeni müharibə - yeni ərazilər" doktrinası təqdim edilirdi. Ötən ilin yayında Azərbaycanın Tovuz rayonuna hücum zamanı onlar sözdən əməli fəaliyyətə keçdilər. ATƏT-in Minsk qrupu Ermənistanın faktlarla, sənədlərlə təsdiqlənən transsərhəd təcavüzünə heç cür reaksiya verməyib formal cavabla kifayətlənəndə məlum oldu ki, sülh yolu ilə nizamlanma təkcə münaqişə tərəfləri arasında deyil, vasitəçi qurumda da de-fakto mövcud deyil".

"Buna görə də Əliyev və Paşinyanın Münxen görüşü həqiqətən Qarabağa dair danışıqların son raundu oldu. Bu danışıqlarda onların diskussiyalı formatı sayəsində Ermənistan açıq şəkildə məğlubiyyətə uğradı, Azərbaycan isə qələbə qazandı. Lakin uduzan tərəf bundan səhv nəticələr çıxardı, belə hesab etdi ki, siyasi-diplomatik istiqamətdə müvəffəqiyyətsizlik səbəbindən hərbi sahədə uğura nail ola biləcək. Doqquz aydan sonra Azərbaycan Qarabağ müharibəsini işğalçı erməni qüvvələrinin darmadağın edilməsi ilə başa çatdırdı", - deyə ekspert bildirir.

Rusiyalı jurnalist Prezident İlham Əliyevin 2019-cu ildə "Valday" forumundakı çıxışını da xatırladaraq, bu çıxışı Qarabağ probleminin ərazi bütövlüyü çərçivəsində həlli üzrə Azərbaycanın beynəlxalq fəaliyyətində ən mühüm dövr adlandırıb.

A.Petrov deyib: "Azərbaycan tərəfi o vaxt Ermənistan tərəfindən Yerevanda yeni hakimiyyət orqanlarının Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin hər hansı marşrutundan imtina faktı qarşısında qoyulmuşdu və Bakı bu kimi provokasiyalı və münaqişənin eskalasiyasına aparan davranışa dəqiq cavab verməli idi. Azərbaycan Prezidentinin "Valday"dakı nitqi belə cavab oldu. Nitqdə Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" şüarının qarşısına "Qarabağ Azərbaycandır və nida işarəsi" ədalətli cavabı qoyuldu. Bununla İlham Əliyev elan etdi ki, Azərbaycan təcavüzkar dövlətin hansısa qeyri-konstruktiv danışıqlara getmək arzusunda olmaması, onun siyasi-diplomatik prosesi daim imitasiya etməsi və beynəlxalq vasitəçilər tərəfindən bu imitasiyaya yol verilməsi ilə barışmaq niyyətində deyil".

Politoloqun fikrincə, 2019-cu ilin oktyabrından 2020-ci ilin noyabrınadək il ərzində baş verən hadisələrin tarixi göstərdi ki, bu, yeganə düzgün cavab idi.

A.Petrov sonda yazır: "Bakı bütün bu dövr ərzində faktlara və rəsmi sənədlərə əsaslanaraq açıq hərəkət edib, erməni tərəfindən gələn daimi feyk axınını ifşa edib, öz vəzifələrini yerinə yetirib və haqlı olaraq Yerevandan və vasitəçilərdən öz üzərlərinə düşən vəzifələri yerinə yetirmələrini tələb edib. Bununla yanaşı, Azərbaycan Ermənistan qoşunlarının güc tətbiq etmək cəhdlərinə müvafiq cavab verib. Buna görə sentyabrın 27-də Ermənistan sərhədyanı yaşayış məntəqələrinə irimiqyaslı hücuma başlayanda və Azərbaycan Ordusu təcavüzkarın sülhə məcbur edilməsi üzrə əks-hücum əməliyyatına keçəndə Cənubi Qafqazda nüfuza malik olan beynəlxalq oyunçuların heç birinin Azərbaycana heç bir obyektiv sualı olmadı. Bu, mənim fikrimcə, son illər İlham Əliyevin Qarabağ siyasətinin mühüm yekunu oldu: Azərbaycan Respublikası həm mövqe baxımından, həm də dəlillər baxımından özünü qüsursuz elçi qismində göstərdi. Buna görə də bütün müstəqil müşahidəçilər üçün aşkar idi ki, Bakı öz ərazilərində işğalçılara və hərbi cinayətkarlara qarşı ədalətli müharibə aparır. Yerevana satılmış siyasətçilər və KİV vəziyyəti tamamilə başqa cür təsvir etməyə çalışırdılar, lakin Cənubi Qafqaz üçün mühüm qərarların qəbul edildiyi ölkələrin mərkəzlərində Bakının haqlı olması aşkar idi. Bu da Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasına kömək oldu".

# "İlham Əliyev bizə tarixin ən böyük məğlubiyyətini yaşatdı"

## Azərbaycan Prezidentinin Qarabağa son səfəri Ermənistanda təşvişi daha da artırdı

***Əvvəli 1-ci səh.***

Manvel Vardanyan adlı istifadəçi "Instagram"da Prezident İlham Əliyevin Laçına səfəri ilə bağlı paylaşılan statusa belə bir şərh yazıb: "Açıq reallıq budur. Müharibədə İlham Əliyev Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi. Bizim baş nazir bəs nə etdi? Seyrçi mövqeyində qaldı. İlham Əliyev bizə tarixin ən böyük məğlubiyyətini yaşatdı". (Məyus işarəsi)

### "Ermənistan İlham Əliyev qarşısında daim məğlubdur"

"Facebook" sosial şəbəkəsində İlham Əliyevin Laçındakı çıxışı ilə bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda fermer olduğu nəzərə çarpan Ovasan Baqdasaryan yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Ünvanımı da yaza bilərəm. Ermənistan İlham Əliyev qarşısında daim məğlubdur. Qarabağda Əliyev bizim rəhbərlərimiz haqda kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, bir daha müharibə başlayarsa, Ermənistanın sonu olacaq. Amma məğlub Paşinyan indiyə qədər buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Nə günlərə qaldıq". (Məyus işarəsi)

"Instagram" sosial şəbəkəsində Vazgen Qaparyan adlı biri beş yüz minlik bəyənməsi olan səhifədə Azərbaycan Prezidentinin Laçında etdiyi çıxışının yer aldığı xəbərə rəy bildirib: "İlham Əliyev ötən ay Şuşada olduğu kimi, Laçında da çox açıq mesajlar verdi. Güləbirddə SES-in açılışını etdi. Paşinyanın İlham Əliyevdən çəkdikləri nədir? Çox qorxulu bir vəziyyətdir. Paşinyan ancaq evdə lovğalanır, hakimiyyətini qorumaq üçün daxili etirazları yatırtmağa çalışır. Əliyev 44 günlük müharibədə Paşinyanın burnunu ovub geri göndərdi. Bugünkü Ermənistan bədbəxtdir". (Qəzəb işarəsi)

### "İlham Əliyev Sarkisyanı da, Paşinyanı da yenə yerə vurdu, sonra da təpiklədi"

Ermənistanın xəbər agentliklərinin sosial media səhifələrində "Dostlar, İlham Əliyevin Qarabağa səfərindəki çıxışlarından nə nəticə çıxardınız" sualına çoxlu sayda münasibət bildirilib. Arsin Arzumanyanın şərhi çoxlu bəyənmələrlə yadda qalıb. İxtisasca hüquqşünas olduğunu qeyd edən Arsin yazır: "Bilmirəm fikir verdiniz ya yox, ümumiyyətlə, İlham Əliyev çıxışlarında Koçaryan və Sarkisyana meydan oxuyur. Hər dəfə Sarkisyanı hərbi cani adlandırır. Bu dəfə də dövlətimizi, ordumuzu biabır etdi. Paşinyanın isə onun cavabını verməyə cürəti çatmır. Çünki qorxaqdır. Ancaq gücü ölkəmizdəki kasıb insanlara çatır. O, baş nazir deyil, üz qarasıdır. Mənim bu şərhimə qeyri-etik ifadələr işlədənləri, Paşinyana, Sarkisyana yaltaqlananları blok edəcəyəm, şikayət edəcəyəm. Xəbəriniz olsun!"

Arsinin şərhinə fikir bildirən sahibkar Samvel Ovannisyanın "Səninlə tamamilə razıyam. Əliyev bizim prezidentləri hər çıxışında əzir. Kimlərsə məni qınasa da, söysə də, bunu açıq şəkildə çəkinmədən yazacağam: İlham Əliyev Ermənistanı da, S.Sarkisyanı da, Paşinyanı da yenə yerə vurdu, sonra da təpiklədi" rəyi bəzilərində qıcıq yaratsa da, əksəriyyətin bəyənməsinə səbəb olub.

### "Azərbaycan Prezidenti Laçından Ermənistana od püskürdü"

Manvel Levonyan adlı birinin "Vkontakte" sosial şəbəkəsindəki paylaşımı da maraqla qarşılanıb: "Acı reallıq olsa da, qəbul edək ki, bizim kimdən nə bəxtimiz gətirmişdi ki, Paşinyandan da gətirsin. Pafoslu çıxışlarına, aktyorluğuna 44 günlük müharibədə İlham Əliyev zərbə vurdu. Azərbaycan Prezidenti Laçından Ermənistana od püskürür, bizimkinin isə susmaqdan başqa çarəsi yoxdur".

Karen Mkrtçyan adlı istifadəçi "Telegram" kanallarından birində Azərbaycan Prezidentinin Zəngilandan, Laçından paylaşılan videolarına, şəkillərinə yazdığı rəylə diqqət çəkib: "Ermənistan dağılır, Azərbaycan qarşısında hər gün daha çox məğlub duruma düşür, bəs bizim media orqanları niyə susur? İlham Əliyevin Laçına səfəri, verdiyi mesajlar bir erməni kimi məni çox üzür. Hər il yay aylarında Yerevandan Laçına istirahətə gedirdik. Təriflədiyiniz Paşinyan buna nə cavab verəcək? Heç nə! Öz kefindədir".

Henrix Saaryan adlı istifadəçinin "Twitter"də paylaşımı isə daha çox "retweet" olunub: "İlham Əliyev Şuşada, Laçında quruculuq işləri ilə tanış olur, Ermənistana sərt mesajlar verir. Bizim baş nazir isə susur. Əliyevə tutarlı cavab verə bilmir və yəqin ki, bundan sonra da bilməyəcək. İndi deyirəm ki, məkanın gerçək sahibləri artıq qayıdıb".

Bu məzmunlu statusa və şərhlərə çoxlu əlavələr etmək olar. 44 günlük müharibədə Ermənistan tarixinin ən böyük zərbəsini alıb. Prezident İlham Əliyevin Qarabağa səfəri zamanı səsləndirdiyi fikirlər isə Ermənistana məğlubiyyətinin acısını yenidən yaşadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Prezident İlham ƏLİYEV: “Bir amalım var idi - güclü Azərbaycan qurmaq”

### Dövlət başçısının 17 il əvvəl təsdiqlədiyi ilk regional inkişaf proqramı ölkənin tarazlı sosial-iqtisadi yüksəlişinin başlanğıcı oldu

*Əvvəli 1-ci səh.*

Ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını məhz regionların sosial-iqtisadi inkişafına yönəldilən, beşillik dövrü əhatə edən birinci dövlət proqramı qoymuşdur. Bu dövrdə iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmişdir. Bunu həmin illərin göstəriciləri də təsdiqləyir. Belə ki, 2004-2008-ci illərdə ölkədə 27,5 mindən çox yeni müəssisə açılmış, 547,5 min daimi yeni iş yeri yaradılmış, yoxsulluğun səviyyəsi 13,2 faizədək azalmışdır. Ümumi daxili məhsulun real həcmi 2,6, qeyri-neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz artmış, əhalinin gəlirləri 4 dəfə çoxalmışdır.

Prezident İlham Əliyev ilk regional inkişaf proqramının əhəmiyyətini vurğulayaraq demişdir: “2004-cü ildə qəbul edilmiş birinci proqram tarixi hadisə idi. O vaxt proqram mənim seçkiqabağı proqramımın tərkib hissəsi idi. O vaxt ilk dəfə prezident vəzifəsinə seçilən zaman vətəndaşlara demişdim ki, əgər mənə etimad göstərilərsə, o cümlədən regionların inkişafı ilə ciddi məşğul olacağam. Çünki bilirdim ki, Azərbaycanın regionlarında vəziyyət o qədər də yaxşı deyil. Bunun da, əlbəttə ki, təbii səbəbləri var idi - infrastruktur köhnəlmişdi, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Ona görə hesab edirdim ki, regional inkişaf proqramı bizim üçün əsas təkanverici proqram olacaq. Eyni zamanda Azərbaycan əhalisinin böyük əksəriyyəti bölgələrdə yaşayır, rayonlarda, kəndlərdə yaşayır. Onların yaşayışı yaxşılaşmalı idi”.

2004-2008-ci illər həqiqətən də Azərbaycanın yüksəlişi üçün təkanverici dövr oldu. Bu illər ərzində həyata keçirilən ardıcıl tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan verdi. Görülən genişmiqyaslı işlər eləcə də sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynadı.

Məlumdur ki, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə adətən ciddi problemlər yaranır, onlar sərbəst yaşamaq imkanına malik olmurlar. Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirmişdir. Sözügedən dövr ərzində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, “Şahdəniz” qazını daşıyan Bakı-Tbilisi-Ərzurum xətti istifadəyə verilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişinə başlanmışdır. Bir sözlə, bu, Azərbaycanın artıq regionun güc mərkəzinə çevrildiyi bir dövr idi.

İqtisadiyyatın əsas sütunlarından olan elektroenergetika sahəsinə xüsusi diqqət yetirilmişdir. Ümumi istehsal gücü 1000 meqavatdan çox olan 9 elektrik stansiyası inşa edilmişdir. Proqram sona çatarkən daha iki stansiyanın tikintisi tamamlanmaqda idi və daha ikisinin inşası davam edirdi.

Proqramın icrasına başlamazdan əvvəl ölkədə qazlaşdırmanın səviyyəsi 60-62 faiz idisə, beş il sonra bu rəqəm 85 faizə çatmışdı. Bu müddət ərzində 8 rayona qaz verilmişdir. 13 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikası qazla təmin olunmuşdur.

Kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində idi. Fermerlərə güzəştli şərtlərlə gübrə verilməsinə məhz bu illərdə başlandı. Meliorasiya tədbirlərinə diqqət artırıldı, suvarılan torpaqların sahəsi genişləndirildi. Nəticədə taxıl və digər kənd təsərrüfatı məhsullarının istehsalı artdı.

Cəmi 5 il ərzində bölgələrdə 4 aeroportun tikilməsi də həyata keçirilən tədbirlərin miqyasından xəbər verir. Belə ki, Naxçıvan, Gəncə, Zaqatala və Lənkəran aeroportları məhz bu dövrdə inşa edilmişdir.

I Regional İnkişaf Proqramının əhatə etdiyi illərdə tanker donanması maksimum dərəcədə təmin olunmuş, Xəzərdə yükdaşımalar artmışdır. Avtomobil yollarının tikintisi geniş vüsət almışdır.

Diqqət mərkəzində olan təkcə iqtisadiyyat deyildi. Sosial məsələlərin həlli də prioritet olmuşdur. Sosial proqramların həyata keçirilməsi, sosial infrastrukturun yaradılması istiqamətində də müsbət nəticələr əldə edilmişdir. Beş il ərzində minimum əməkhaqqı 8,3 dəfə, minimum pensiya 4 dəfə artmışdır. Sosial infrastrukturun yaradılmasına və yenilənməsinə böyük həcmdə vəsait yönəldilmişdir. 1600 məktəb tikilmişdir. Yüzlərlə tibb ocağı inşa edilmişdir. Onlardan 8-i yüksək standartlara cavab verən müalicə-diaqnostika mərkəzləri idi. Həmin dövrdə eləcə də 10-dan çox olimpiya idman kompleksi və digər qurğular istifadəyə verilmişdir.

2009-cu ilin fevral ayında I Regional İnkişaf Proqramına yekun vurularkən Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının artıq oturuşmuş iqtisadiyyat olduğunu və dünyanı bürümüş maliyyə böhranının ölkəmizdə çox az hiss edildiyini qeyd etmiş, sözügedən sənədin inkişafa böyük təkan verdiyini demişdir: “Bütün bunlar, əlbəttə ki, növbəti illərdə iqtisadiyyatımızın daha da şaxələndirilməsinə gətirib çıxaracaqdır. Beləliklə, ölkə öz inkişafını uğurla davam etdirəcəkdir və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları bundan sonra da ildən-ilə daha yaxşı yaşayacaqdır. Bu da 2004-cü ilin əvvəlində qarşıya qoyduğumuz ən vacib məqsədlərdən biri idi”.

Zaman qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı. Odur ki, bu gün müstəqil Azərbaycan özünün ən şanlı dövrünü yaşayır. İqtisadi gücü ona bütün dünyada böyük nüfuz qazandırmış, eləcə də torpaqlarımızı işğaldan azad etməkdə, düşmən üzərində qələbə çalmaqda əsas səbəblərdən biri olmuşdur. Təsadüfi deyil ki, tanınmış beynəlxalq reytinq təşkilatları Azərbaycan iqtisadiyyatının bütün sahələrindəki nailiyyətləri yüksək dəyərləndirir. Azərbaycan dünyanın 10 ən islahatçı ölkəsi sırasında qərarlaşıb.

**Flora SADIQLI,**
**“Azərbaycan”**

## Faydalı qazıntı yataqları hərrac qaydasında istifadəyə veriləcək

İlk dəfə olaraq faydalı qazıntı yataqları hərrac qaydasında istifadəyə veriləcək. Bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili üzrə Auksion Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi arasında razılaşma əldə olunub.

Məqsəd bölgələrdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadi mühitin genişləndirilməsi, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasıdır.

Qeyd edilməlidir ki, ilkin olaraq Ağcabədi, Beyləqan, Goranboy, Göygöl, Qazax, Tovuz rayonlarında yerləşən yataqların hərrac qaydasında istifadəyə verilməsi nəzərdə tutulur. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə mövcud olan faydalı qazıntı yataqları yenidən qiymətləndirildikdən sonra həmin yataqların da qanunvericiliyə əsasən hərrac vasitəsilə istismara verilməsi planlaşdırılır.

Hərracın şərtləri, istifadəyə veriləcək faydalı qazıntı yataqları barədə ətraflı məlumat əvvəlcədən İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi saytında (emlak.gov.az) və Özəlləşdirmə portalında (privatization.az) yerləşdiriləcəkdir.

## Zərdabda ümumi məhsul buraxılışının həcmi 2 milyon manatadək artıb

Zərdab rayonunda ötən il ümumi məhsul buraxılışının həcmi əvvəlki ilə nisbətən 1 milyon 993 min manat artaraq 165 milyon 490,1 min manat olub.




Rayon icra hakimiyyətindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, ümumi məhsul buraxılışında aqrar sektorun payı 79 milyon 528,3 min manat təşkil edib. Bu sahədə artım 5 milyon 808 min manatdır. Dünyanı çənginə alan koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, iqtisadiyyatın digər sahələrində də artım olub. Keçən il 7 milyon 281,6 min manatlıq sənaye məhsulları istehsal edilib və bu sahədə artım 822 min manatdır.

## Son üç ildə əmək müqavilələri 30, minimum əməkhaqqı 116, aylıq əməkhaqqı fondu 81 faiz artıb

Ölkəmizdə məşğulluq imkanlarının artırılması və əmək münasibətlərinin leqallaşdırılması istiqamətində aparılan işlər son üç ildə əmək müqavilələrinin sayının 30 faiz artması ilə nəticələnib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumata görə, əmək müqavilələrin sayı 2018-ci ilin əvvəli ilə müqayisədə 393 min artaraq 1 yanvar 2021-ci il tarixə 1 milyon 703 min 249-a çatıb. Özəl sektor üzrə əmək müqaviləsi artımı 63 faiz, dövlət sektoru üzrə 10 faiz təşkil edib. Təkcə 2020-ci ildə əmək müqavilələrinin sayında 149 min və ya 10 faiz artım qeydə alınıb. Son üç ildə minimum əməkhaqqı 2 dəfədən çox artaraq 250 manata, median əməkhaqqı 66 faiz (o cümlədən dövlət sektoru üzrə 85 faiz, özəl sektor üzrə 36 faiz) artaraq 343 manata çatıb.

Əmək müqavilələrinin sayında və əməkhaqlarında mütəmadi artım əməkhaqqı fondunda da ciddi artımı şərtləndirib. 2018-2020-ci illərdə aylıq əməkhaqqı fondu 81 faiz artıb. Artım özəl sektorda 87 faiz, dövlət sektorunda 76 faiz olub. O cümlədən 2020-ci ildə aylıq əməkhaqqı fondu 12 faiz (o cümlədən özəl sektor üzrə 18 faiz, dövlət sektoru üzrə 6 faiz) artıb.

Bu dövrdə Dövlət Məşğulluq Agentliyi tərəfindən işlə təmin olunanların sayı 107 faiz artaraq 2020-ci ildə 94 minə, o cümlədən ödənişli ictimai işlərlə təmin olunanların sayı 55 dəfəyə yaxın artaraq 48 minə çatıb.

## “Kənddən şəhərə” həftəsonu yarmarkaları yenidən təşkil ediləcək

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC tərəfindən 19-21 fevral tarixlərində Bakı və Abşeron ərazisində üç fərqli nöqtədə “Kənddən şəhərə” həftəsonu yarmarkaları təşkil olunacaq.

Yarmarkalarda birbaşa fermerlər tərəfindən təbii kənd və qida məhsullarının münasib qiymətlərlə satışı həyata keçiriləcək.

Yarmarkanın təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və şəhər sakinlərinin kənd təsərrüfarı məhsullarına olan tələbatını daha dolğun təmin etməkdir.

Qeyd edək ki, yarmarka karantin rejiminin tələblərinə tamamilə əməl olunmaqla keçiriləcək. Yarmarkada əvvəlcədən qeydiyyatdan və tibbi müayinədən keçən fermerlər iştirak edəcəklər. Onlar ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.) da təmin olunacaqlar. Yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya tədbirləri aparılacaq, yarmarkaya daxil olan vətəndaşların temperaturu ölçüləcək və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzərət olunacaq.

“Kənddən şəhərə” həftəsonu yarmarkaları Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının çıxışı), Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B (“İnqilab” kinoteatrının yanı), Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A ünvanlarında fəaliyyət göstərəcək.

## Azərbaycanın aqrar sektoru pandemiya sınağından uğurla çıxır

*Əvvəli 1-ci səh.*



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təqdim etdiyi “İxrac İcmalı”nda göstərilir ki, 2020-ci ildə Azərbaycanın ümumi ixracı 13,7 milyard, qeyri-neft sektoru üzrə 1,9 milyard ABŞ dolları dəyərində olmuşdur. Ötən il qeyri-neft sektoru üzrə ixracın dəyəri 2019-cu illə müqayisədə 102 milyon dollar (5,2 faiz) azalsa da, bu, pandemiyanın əksər ölkələrə vurduğu ziyanların fonunda o qədər də narahatedici görünmür.

Ötən il qeyri-neft sektoru məhsulları ixrac etdiyimiz ölkələrin sırasında birinci yerdə 691 milyon manatla Rusiya, ikinci yerdə 377,8 milyon manatla Türkiyə, üçüncü yerdə 224,8 milyon manatla İsveçrə dayanır. Həmçinin Gürcüstana 127,6 milyon və Çinə 44,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunmuşdur.

Keçən il ixrac edilən kənd təsərrüfatı məhsulları sırasında tomat, yəni pomidor (201,4 milyon dollarlıq) və pambıq mahlıcı (131,9 milyon dollarlıq) ilk yerləri tutur. İl ərzində həmçinin meyvə-tərəvəz, pambıq lifi, pambıq ipliyi, spirtli və spirtsiz içkilər, şəkər, bitki və heyvan mənşəli piy və yağlar, çay ixrac edilmişdir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə meyvə-tərəvəz ixracı 0,3, bitki və heyvan mənşəli piy və yağların ixracı 34, şəkər ixracı 0,1 və pambıq lifi ixracı 7,5 faiz artmışdır. Göründüyü kimi, pandemiyanın ölkədə tüğyan etdiyi aylarda belə aqrar sektor normal fəaliyyət göstərmiş və nəticədə 2019-cu ilə nisbətən daha yüksək göstəricilər əldə olunmuşdur.

Bu yerdə ötən ilin sonuncu ayına aid bir sıra statistik rəqəmləri 2019-cu ilin müvafiq dövrü ilə müqayisə etmək yerinə düşərdi: 2020-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixracın dəyəri 213,5 milyon dollar olaraq ümumi ixracda payı 31,4 faiz təşkil etmişdir ki, bu da 2019-cu ilin son ayı ilə müqayisədə 23,1 faiz artım deməkdir.

Keçən ilin dekabrında qeyri neft-qaz məhsullarının ən çox mal ixrac edildiyi ölkələrin birinci üçlüyünə yenə də Rusiya (62,8 milyon dollar), Türkiyə (57,3 milyon dollar) və İsveçrə (23,5 milyon dollar) aiddir.

“İxrac İcmalı”nda o da bildirilir ki, 2021-ci ilin yanvar ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft məhsulları ixracının dəyəri 8,8 milyon ABŞ dolları olmuşdur. Yeri gəlmişkən məlumat verək ki, ötən il “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac olunan mal və məhsulların dəyəri 182,8 milyon dollar təşkil etmişdir.

**Bahadur İMANQULİYEV,**
**“Azərbaycan”**

## Yuxarı Qarabağ kanalının Bərdə rayonu ərazisindən keçən hissəsində betonlama işləri aparılır

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması kənd təsərrüfatının inkişafını şərtləndirən əsas amillərdəndir. Odur ki, torpaqların su təminatı üçün ardıcıl tədbirlər görülür, suvarma şəbəkələri genişləndirilir, su sistemlərində təmir-bərpa işləri həyata keçirilir.

Ölkəmizin əsas suvarma kanallarından olan Yuxarı Qarabağ kanalı Qarabağ və Mil düzlərinin suvarılmasında mühüm rol oynayır. Yuxarı Qarabağ kanalı İstismar İdarəsinin rəisi Şakir İmanov AZƏRTAC-a müsahibəsində bildirib ki, 1958-ci ildə istifadəyə verilən Yuxarı Qarabağ kanalı mənbəyini Mingəçevir su anbarından öz axımı ilə götürür. Uzunluğu 172,4 kilometr olan kanal 6 rayonun ərazisindən keçməklə, 11 rayonun 130 min hektar əkin sahəsinə xidmət edir. 26 min hektar əkin sahəsi kanalüstü ərazilərə düşdüyündən nasoslarla, 104 min hektar əkin sahəsi isə öz axımı ilə paylayıcılar vasitəsilə suvarılır. Yay aylarında Araz çayında su çatışmazlığı olduqda Yuxarı Qarabağ kanalından Bəhrəmtəpə hidroqovşağına saniyədə 25-30 kubsaniyə su ötürülür. Bu da Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Cəlilabad rayonlarının əkin sahələrini su çatışmazlığından xilas edir.



İdarə rəisi qeyd edib ki, Yuxarı Qarabağ kanalı torpaq məcralı olduğundan su itkisinin qarşısını almaq üçün mütəmadi olaraq bənd-bərkitmə işləri aparılır, dambaların alçaq və ensiz yerlərinə torpaq daşınıb tökülür, daxili yamaclarda isə betonlama işləri həyata keçirilir. 2020-ci ildə 55 ədəd hidrotexniki qurğu, 17 ədəd hidrometrik post təmir edilib. Kanalın 2 min kvadratmetr koldan təmizləmə, 140 min kvadratmetr dırmıxla təmizləmə, 2100 kubmetr əllə lildəntəmizləmə, 350 min kubmetr mexanizmlə təmizləmə, 320 min kubmetr torpaq mühafizə bəndlərinin təmiri işləri görülüb.

Yuxarı Qarabağ kanalında hazırda su itkisini minimuma endirmək və qarşıdan gələn yaz-yay suvarma mövsümünə hazırlıq məqsədilə təmir tikinti işləri davam etdirilir. Kanalın baş mütəxəssisi Amil Kosayev bildirib ki, kanalın Yevlax rayonunun Malbinəsi kəndi ərazisindən keçən hissəsində betonlama işləri yekunlaşıb. Kanalın Bərdə rayonu ərazisində, Yevlax-Bərdə avtomobil körpüsünün giriş və çıxış hissələrində beton üzlüyə alınması işləri aparılır. Bərdə rayonunun 11-ci paylayıcı hissəsində sipərlərin dəyişdirilməsi, səviyyəqaldıran qurğunun təmiri və Ağcabədi rayonunda sudüşürən qurğunun çıxış hissəsinin betonlanması işləri həyata keçirilir.

## İmişlidə yanvar ayında 50 min tondan çox süd istehsal olunub

Heyvandarlıq İmişlidə aqrar sahənin əsas istiqamətlərindəndir. Rayonda bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Həmçinin dövlətin fermerlərə etdiyi güzəştlər və son məhsula görə verdiyi əlavə subsidiyalar heyvandarlığın inkişafına güclü təkan verir.



Bunun nəticəsində də mal-qaranın baş sayının və heyvandarlıq məhsullarının artmasında yaxşı nəticələr qazanılır. Hazırda fərdi təsərrüfatlarda 95 min 482 baş qaramal və 254 min 678 baş qoyun-keçi saxlanılır. Naxırda ana inək-camışların baş sayı 40 min 678-ə çatıb.

Bu barədə AZƏRTAC-a rayon statistika idarəsindən məlumat verilib. Bildirilib ki, cari ilin ilk ayında fermerlər bəslədikləri mal-qaradan 13 min 273,6 ton ət (diri çəkidə), 50 min 307,3 ton süd götürüblər. Məhsul istehsalçıları həmçinin 40 milyon 336 min ədəd yumurta istehsal ediblər.

Biz birlikdə güclüyük!



# Ölkə üzrə peyvəndləmə prosesi mərhələli şəkildə davam edir

*Əvvəli 1-ci səh.*

Yanvarın 18-dən Azərbaycanda da COVID-19 virusuna qarşı başlayan vaksinasiya prosesində Çinin "Sinovac" şirkətinin istehsalı olan "CoronaVAC" peyvəndindən istifadə olunur. "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndləmə prosesi mərhələli şəkildə davam etdirilir. Artıq yanvarın 18-də birinci doza vaksinasiya olan səhiyyə işçilərinin ikinci doza vaksinasiyasına da start verilib.

Fevralın 16-dan isə Azərbaycan Ordusunda COVID-19 əleyhinə vaksinasiya prosesinə başlanılıb. Silahlı Qüvvələrin Baş Klinik Hospitalı və digər hərbi hissələr bu məqsədlə ən müasir tibbi avadanlıqlarla təchiz olunub. Xəstəliyin diaqnostikası üçün müasir standartlara cavab verən laboratoriyalar təşkil edilib. Laboratoriyalarda xaricdə təhsil alıb treninqlər keçmiş tibb işçiləri fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin vaksinasiya prosesi ilə bağlı birgə məlumatında bildirilir ki, bu gündən etibarən 50 yaş və daha yuxarı yaşlı şəxslərin COVID-19 xəstəliyinə qarşı vaksinasiyası nəzərdə tutulur.

Sözügedən şəxslər https://randevu.its.gov.az/ saytına daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidirlər. Bunun üçün "COVID-19 vaksin randevu" elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib "Yoxla" düyməsinə basmalıdır. Bundan sonra vətəndaş təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidir. Qeydiyyat başa çatdıqdan sonra daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj göndərilir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd edilir.

Peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Çünki ilkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir. Vətəndaş peyvəndləmə vaxtını və ya məntəqəni dəyişmək istədikdə isə yenidən qeydiyyatdan keçməlidir. Təyin olunan vaxtda tibb müəssisəsinə yaxınlaşdıqda vətəndaş qeydiyyatçıya şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

Həmçinin bildirək ki, elektron xidmət vasitəsilə qeydiyyatdan keçməkdə çətinlik çəkən şəxslər ərazi üzrə poliklinikaya zəng edərək qeydiyyatçıya kimliyi barədə məlumat verməlidir. Bu zaman qeydiyyatçı həmin şəxs üçün sözügedən elektron xidmət vasitəsilə onlayn növbənin götürülməsini təmin edir.

TƏBİB-in vaksin vurulduqdan sonra mümkün ola biləcək hallarla bağlı açıqlamasında məlumat verilib ki, baş və əzələ ağrıları, qızdırma kimi əlamətlər əks-təsir deyil, əksinə, gözlənilən nəticədir və bədənin vaksinə müsbət reaksiya verməsinin göstəricisidir.

Vaksin istehsal edən şirkət tərəfindən yalnız vaksin elementinə qarşı yüksək həssaslığı, vaksin vurulan zaman yüksək bədən hərarəti və ya xroniki xəstəliyinin kəskinləşmə mərhələsində olan insanlara vurulması tövsiyə edilmir.

Sözügedən qurumun İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva vaksinlə bağlı məlumat verərək bildirib ki, peyvəndin ilk dozası vurulduqda hədəf orqanizmlə antigeni tanış etməkdir. İlk dozanın təsiri zəif olur. İlkin mərhələ tanışlıq mərhələsidir. Orqanizm antigenlə yeni tanış olur, onu nə gözlədiyini bilir və müəyyən cavab reaksiyası hazırlayır. Bu mərhələnin nəticəsində çox cüzi şəkildə qorunma əldə edilir. Yəni bu zaman peyvəndin tam effekti bilinmir. 28 gündən sonra ikinci doza vurulur. Bu zaman da eyni dozada, eynitərkibli peyvənd vurulur. Bu, cavab reaksiyasını möhkəmləndirmək, daha çox anticisim sintezinə nail olmaq üçün həyata keçirilir.

Həkim infeksionist qeyd edib ki, vaksin vurdurandan sonra təxminən 70-80 faiz halda qorunmuş hesab olunuruq. Peyvəndləmə prosesi ən azından əhalinin 60-70 faizini əhatə etməyənə qədər vaksinin təsir etməyəcəyi 30 faiz təhlükə altında qalır. Ona görə də peyvənd olunsaq belə ən azı ilin sonuna qədər, peyvəndləmə prosesi ölkəmizdə və dünyada kütləvilik təşkil edənə qədər qorunma tədbirlərinə riayət olunmalıdır.

Həkim peyvənddən sonra ilk 24-48 saat ərzində daha çox istirahətə üstünlük verməyin, bol maye qəbul etməyin vacibliyini də vurğulayıb. Peyvənd vurduranların bəzilərində inyeksiya olunan nahiyədə, qolda ağrılar müşahidə oluna bilər. Bu zaman parasetamol tərkibli ağrıkəsicilərdən istifadə edilə bilər. Həmçinin qol nahiyəsini hündürdə saxlamaqla ağrını azaltmaq olar.

N.Mustafayeva bildirib ki, əslində, hər kəs vaksin oluna bilər: "Lakin peyvənd çox yeni olduğuna, uşaqlar və hamilə qadınlar üzərində tədqiqatlar olmadığına görə verilən nəticələr bizi tam qane etmir. Eyni zamanda uşaqların xəstəliyi yüngül keçirdiyini nəzərə alaraq onlara ən azından bir müddət vaksinasiya aparılmayacaq. Uşaqlar üzərində aparılan tədqiqatlar tam yekunlaşıb təhlükəsiz nəticələr açıqlananadək belə olacaq. Qeyd edim ki, uşaqlarda xəstəliyi ağır keçirmə faizi 0,2-yə bərabərdir".

Vaksin pandemiya ilə mübarizədə ən effektiv vasitə olsa da, mütəxəssislərin də vurğuladığı kimi, hələlik arxayınlaşmaq və COVID-19-a qarşı tədbirləri əldən vermək tezdir. Buna görə də sosial məsafə saxlanılması, maska taxılması və şəxsi gigiyenaya diqqət edilməsi çox vacibdir.




***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Biz gəlmişik, Zəngilan!

Doğma Zəngilanıma getmək barədə müraciətimə müsbət cavab aldıqdan sonra səbirsizliklə səfər gününü gözlədim. İxtiyarımda olan vaxt hədər getməsin deyə didərginlik yaddaşımı təzələmək qərarına gəldim. Arxiv kimi saxladığım "Zəngilanın səsi" qəzetinin 27 illik nüsxələrini qarşıma qoyub vərəqlədim.

21 il əvvəl qələmə aldığım bir yazı diqqətimi cəlb etdi: "...hər il oktyabrın sonu yaxınlaşanda sanki dərdimizin üstünə dərd gəlir. Füsunkar Zəngilanımızı itirməyin ağrı-acıları şahə qalxır..."

Etiraf edim ki, ən yaxın zamanadək oktyabr gəlməsini istəmədiyim, qamətimin əyildiyi ay idi. Doğrudan da, həyatın çox heyrətamiz dönəmləri var. Əsas odur ki, sınmayasan, ümidini, inamını itirməyəsən.

Bu gün isə oktyabr ayı hər birimiz üçün unudulmaz, sevimli zaman kəsiyidir. Doğma Zəngilanımızın azadlığa qovuşduğu mübarək aydır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmənə sarsıdıcı zərbələr endirən şanlı Ordumuz məhz oktyabr ayının 20-də Azərbaycan bayrağını Zəngilanda dalğalandırdı.

Sübh qaranlıqda yola düşdük. Səhərin gözü açılanda artıq Horadiz qəsəbəsinə çatmışdıq. Dövlət başçısının 29 oktyabr 2020-ci il tarixli fərmanının icrası ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış monitorinq qrupunun Zəngilan rayonu üzrə nümayəndəsi Möhübbət Qurbanov da burada idi. Öyrəndik ki, o, sözügedən nazirliyin məsul nümayəndələri ilə birlikdə baxış keçirmək, ermənilərin vurduğu zərəri qeydə alıb sənədləşdirmək üçün Zəngilana - Bəsidçay Dövlət Təbiət Qoruğuna gedir. Marağımızı nəzərə alıb bir neçə məlumat da verdi: işğaldan sonrakı qısa dövr ərzində rayonumuzda əksəriyyəti Şərq çinarı və tut tingləri olmaqla, 900-dən çox ağac əkilib. Bu nəcib iş davamlı olaraq icra edilir.

Horadiz qəsəbəsində gördüklərimdən çox heyrətləndim. Bura regionların sosial-iqtisadi inkişafına çox yaxşı bir nümunədir. Xeyli abadlaşdırılan, yenidən qurulan qəsəbə göz oxşayır. Buradakı başqa dəyişiklikləri görmək marağım olsa da, doğma Zəngilan məni özünə çəkirdi

Polis əməkdaşları da sanki keçirdiyimiz hissləri duyub, yoxlanışdakı ciddiyyətlərini xoş münasibətlə, "yaxşı yol!" nidası ilə tamamladılar. Təhlükəsizliyimiz üçün zəruri xatırlamalar bildirməyi də unutmadılar. Yolboyu daha bir neçə yoxlanışdan keçib mənfur düşmənin caynağından xilas olan yurd yerlərimizə doğru irəlilədik...

Füzuli və Cəbrayıl rayonlarının yolətrafı kəndlərində qarşılaşdığımız mənzərələrdən, daha doğrusu, ibtidai təfəkkürlü, vəhşi xislətli məxluqların (onlara millət, xalq deməyə dilim gəlmir) xarabalığa çevirdikləri yaşayış məskənlərimizi gördükdən sonra ağlıma nakəs, namərd sözləri gəldi. Dözməyib ucadan: "Ay yaramazlar, əgər bu yerlər, bu torpaq sizə lazım deyildisə, minbir cildə girib, havadar axtarıb onun gücü ilə yurd yerlərimizi, dədə-baba ocağımızı niyə belə xarabalığa çevirdiniz? Siz insan, yoxsa xarabalıq sevən bayquşsunuz?" söylədim.

Nəhayət, Zərnəli, Havalı kəndləri istiqamətindən rayonumuzun müqəddəs torpaqlarına ayaq basdıq. İran İslam Respublikası ilə müştərək tikilən bənd nəticəsində yaranmış geniş su hövzəsinin ortasından keçən Arazboyu yolla Həkəri (Akara) kəndinə qalxdıq. Xatırladım ki, relsləri talançı erməni quldurları tərəfindən sökülüb aparılmış bu yol vaxtilə qatarlarımızın keçdiyi dəmir yoludur. Su səviyyəsindən hündür olduğu üçün hazırda şose yolu kimi istifadə olunur.

Həkəridən Muğanlıya, oradan isə Ağ oyuq düzünə - magistrala çıxdıq. Keçdiyimiz yollar boyu sərhədçilərin və polislərin hərəkətimizi nəzarətdə saxladıqları aşkar nəzərə çarpırdı.

Ağ oyuq düzünə qalxarkən keçib gəldiyimiz Füzuli və Cəbrayıl rayonlarından fərqli olaraq, taxıl sahələrimizdə geniş miqyasda əkin və səpin işləri aparılması diqqətimizi cəlb etdi. Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Möhübbət Səmədova telefonla zəng edib öyrəndim ki, torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra rayonumuzda təsərrüfat işlərinə başlanıb və 1330 hektarda taxıl səpini aparılıb. Eləcə də İnkişaf Mərkəzinin xəttilə 500 ədəd tut tingi və 50 ədəd Şərq çinarı əkilib. Direktor bildirdi ki, havalar imkan verən kimi əkin və səpin işləri davam etdiriləcək.

...Bu da iri hərflərlə yazılmış "Zəngilan" və doğma torpağa həkk olunmuş "Qarabağ Azərbaycandır!" sözləri.



Mənim və yol yoldaşlarımın keçirdiyi sevinc hissini sözlərlə ifadə etmək çətindir. Oxçu çayına doğru enərkən yolun sol tərəfində Birinci Qarabağ savaşı zamanı salınmış "Şəhidlər xiyabanı"nda avtomobilimizi əylədik. Şəhidlərimizə Allahdan rəhmət dilədik. "Qisasınız yerdə qalmadı, rahat yatın!" deyib yolumuza davam etdik.

"Ay Allah, Oxçu çayın suyu necə göz yaşı kimi dumdurudur!" nidasından sonra hamımız çaya tərəf boylanırıq. Bu da Dağbəyinin kababxanasıdır. Bəs bura haradır? Şərəfsizlər gözəl şəhərimizi elə hala qoyublar ki, yeri-yurdu tanımaq olmur...

Öndə Zəngilan Rayon Polis Şöbəsi görünür. Maşından düşüb ətrafda nə varsa, hamısını bir anda görmək istəyirəm. Ancaq Səməd Vurğun adına şəhər stadionunun divarları boyunca sıralanmış geniş çətirli, hündür qovaq ağaclarının seyrələn sıraları diqqətimi daha çox cəlb edir. Əlimi qarşıma çıxan ilk qovaq ağacının iri gövdəsinə toxundururam. Sığal çəkib astadan soruşuram:

- Məni tanıdınmı?.. Bilirəm, sualıma cavab eşitməyəcəm. İçimdən gələn doğma bir istəklə soruşdum!.. Məni qınama, doğma torpağıma qovuşmağın sevincini yaşayıram. Ürəyimi boşaltmağa köhnə tanışlardan həmsöhbət axtarıram.

Polis əməkdaşı durduğu yerdən bir neçə addım irəli gəlib kimliyimizlə maraqlandı. Tanışlıq verib, rəislə görüşmək istədiyimizi bildirdik.

Rəis Bəkir Cabbarovdan eşitdiklərimiz ürəyimizcə olan müjdələr idi. O, bildirdi ki, bütün iş və fəaliyyətimiz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kurs üzrə davam edir. Hər ötən gün bizi doğma torpaqlarımıza yaxınlaşdıran uğurlu bir addımdır.

Söhbətimizi tamamlayarkən xatırladırıq ki, bu gün hər bir zəngilanlı doğma yurd yerlərinə qovuşmağa tələsir. Əhalimizin hansı köməyi, işi, fəaliyyəti bu məsələdə müəyyən fayda verə bilər?

- Polisimiz də, ordumuz da xalqımıza, onun aparıcı təbəqəsi olan ziyalılara güvənir. Maddi təchizatımız ən yüksək səviyyədədir. İşğaldan azad olunmuş rayonlarda bütün məsələlərə rəhbərlik birbaşa nəzarət edir, - deyə rəis bildirir və sözünə davam edir. - Əhalimizin, xüsusən ziyalılarımızın mənəvi köməyinə gəldikdə isə əminəm ki, gələcəkdə buna ciddi ehtiyac olacaq. Hələlik isə bir qədər səbrli olaq, rayona elliklə qayıdışı gözləyək.

...Az qala 30 ilə çatan həsrətdən sonra uşaqlıq, yeniyetməlik, gənclik illərimin xoş xatirələrinin uyuduğu həyətdəyəm. Hərbi geyimdə doğma torpağımızdan göndərdiyi ilk videolarla çoxlarımızı həyəcanlandıran və sevimlimizə çevrilən Seyid Faiq Əhmədov virtual olsa da, məni evimizlə "görüşdürmüşdü". Amma bu, başqa görüş idi, üz-üzə, göz-gözə!

Evimiz yerlə-yeksan edilmişdi. Təkcə məhəlləmiz deyil, şəhərimizin bina və küçələri bütünlüklə dağıdılmışdı. Elə bir vəziyyət idi ki, evimizdən bir neçə yüz metr aralıda yerləşən, illərlə çalışdığım rayon poliqrafiya müəssisəsinin yerini müəyyənləşdirə bilmədim. Ürək ağrıdan mənzərə idi.

Şəhər qəbiristanlığında da eyni vəziyyətlə qarşılaşdım. Atamın məzarını tapa bilmədim. Ermənilər mərhumlarımızın qızıl dişləri üçün goreşənlik etmiş, eləcə də qəbirlərin sinə və baş daşlarını sındırıb dağıtmaqla iyrənc məxluq olduqlarını bir daha təsdiqləmişdilər.

Bütün bu ürəkağrıdıcı gerçəkliklərə baxmayaraq, havası, suyu, bol nemətləri ilə boya-başa çatdığım doğma torpağıma - Zəngilanıma qovuşduğum üçün özümü çox xoşbəxt hiss edirdim. Geriyə - köçkün şəhərciyimizə qayıtdıqdan sonra da xoş duyğular aləmindəyəm. Çünki qəlbən inanıram ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz müqəddəs savaşdan zəfərlə çıxdığı kimi, xalqımız da ən qısa müddətdə böyük uğurlara imza atmaqla nəinki işğaldan azad olunmuş yurd yerlərimizi, bütövlükdə doğma Azərbaycanımızı dünyanın ən firavan, gözəl, cənnət guşəsinə çevirəcək!

***Salam CAVADLI,***
***"Zəngilanın səsi" qəzetinin baş redaktoru***





# Bu gündən Azərbaycanda hərbi qulluqçuların koronavirus əleyhinə vaksinasiyasına başlanılıb

Bu gündən Azərbaycanda hərbi qulluqçuların yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiyasına başlanılıb.

Azərbaycan Ordusunda COVID-19 əleyhinə vaksinasiya prosesi "SARS-COV-2 vaksinasiyasına rəhbərliyin" tələblərinə riayət olunaraq aparılır. AZƏRTAC xəbər verir ki, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında peyvənd olunacaq şəxslər şəxsiyyət vəsiqələri ilə və sosial məsafəni gözləməklə yaradılmış peyvənd məntəqələrinə yaxınlaşır, sonra müvafiq jurnalda qeydiyyatdan keçirlər. Qeydiyyatdan keçdikdən sonra həkim tərəfindən onlara tibbi baxış keçirilir, bədən hərarəti yoxlanılır, COVID-19 xəstəliyini keçirib-keçirməməsi, əks göstərişlərin olub-olmaması müəyyənləşdirilir.

Xatırladaq ki, təlimata görə, son 6 ay ərzində xəstəliyi keçirənlərə peyvənd vurulmur. Hər hansı bir əks-göstərişi olmayanlar peyvənd vurulma otağına daxil olurlar. Burada onları peyvənd qrupları qarşılayır. Aseptika və antiseptika qaydaları gözlənilməklə və soyuq zəncir prinsiplərinə əməl edilərək saxlanılmış peyvənd vurulur. Vaksinasiya olunmuş şəxs xüsusi ayrılmış palatada 30 dəqiqə ərzində müşahidədə saxlanılır, hər hansı bir ciddi əlamət müşahidə edilməzsə, evə, yaxud xidmət yerinə buraxılır.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalında COVID-19 xəstəliyinin diaqnostikası üçün müasir standartlara cavab verən laboratoriya təşkil olunub. Laboratoriya bütün lazımi avadanlıq və cihazlarla təchiz edilib. Burada xaricdə təhsil almış, eləcə də treninqlər keçmiş tibb işçiləri çalışırlar. COVID-19 xəstəliyinə şübhəli olanlar laboratoriyanın xüsusi girişində yaradılmış nümunələrin götürülməsi sektorunda qeydiyyata alınır və əsnək və burundan yaxmalar götürülür. Nümunələr işləndikdən sonra "Real-Time PZR" aparatına yerləşdirilir. Nəticələr oxunduqdan sonra müvafiq elektron portala daxil edilir.

Silahlı Qüvvələrin baş sanitar həkimi, tibb üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Surxay Məmmədovun sözlərinə görə, müdafiə naziri general-polkovnik Zakir Həsənov Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli 48s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nın icrasının təmin edilməsi barədə əmr imzalayıb, Azərbaycan Ordusunda COVID-19 xəstəliyi əleyhinə könüllülük prinsipi əsasında peyvəndləmə işlərinə başlanılıb. Vaksinasiya Strategiyasına uyğun olaraq, ilk növbədə, risk qruplarına peyvənd vurulur. Vaksinasiyanın həyata keçirilməsi üçün Bakı qarnizonu üzrə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında, işğaldan azad olunmuş ərazilərdə və digər yerlərdə yerləşən müvafiq hospitallarda həkimlər və tibb bacılarından ibarət peyvənd qrupları təşkil olunub, bütün lazımi şərait yaradılıb.

"Məhz Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın daimi diqqət və qayğısı, ordu rəhbərliyinin ciddi tələbkarlığı, eləcə də hərbi həkimlərin fədakarlığı sayəsində Azərbaycan Ordusunun epidemiya əleyhinə təminatı yüksək səviyyədə təşkil olunub. Belə ki, nə 44 günlük Vətən müharibəsinin gedişində, nə də ondan sonrakı dövrdə nəinki COVID-19, eləcə də digər yoluxucu xəstəliklərlə kütləvi xəstələnmə halları qeydə alınmayıb. Həyata keçirilmiş epidemiya əleyhinə effektli tədbirlərin nəticəsidir ki, hazırda Azərbaycan Ordusunda COVID-19 xəstəliyinə görə epidemioloji vəziyyət stabil və qənaətbəxşdir", - deyə S.Məmmədov bildirib.

# FHN Dövlət Yanğın Nəzarəti Xidməti inzibati tədbirlərini davam etdirir

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti paytaxtın Nərimanov rayonu, Müzəffər Nərimanov küçəsi, 4 ünvanında yerləşən zavodda plandankənar yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcudluğunu aşkarlayıb. Həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyənləşdirilib.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yoxlama zamanı müəssisənin ərazisinin, bina və tikililərin yanğına qarşı ara məsafələrinin yanar tullantılardan vaxtaşırı təmizlənmədiyi, inzibati binanın və istehsal sahəsinin normalara uyğun təxliyə çıxışları ilə təmin olunmadığı, bina və qurğuların avtomatik yanğın xəbərverici siqnalizasiya və tüstüxaricetmə qurğuları, yanğına qarşı su təchizatı sistemləri ilə təmin olunmadığı, elektrik təsərrüfatının "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə uyğun quraşdırılmadığı, qeyri-standart elektrik qızdırıcı cihazlarından və odun sobalarından istifadəyə yol verildiyi, insanların və qiymətli əşyaların köçürülməsi üçün "Təxliyə planı"nın tərtib edilmədiyi müəyyən olunub. Həmçinin obyektdə mövcud istismar müddəti başa çatmış odsöndürənlərin tərkibinin yenisi ilə əvəzlənmədiyi, obyektin tələb olunan zəruri sahələrinin ilkin yanğınsöndürmə alət və vasitələri ilə təmin olunmadığı, yanğın su hovuzunun saz vəziyyətə gətirilmədiyi, yanğın texnikasının su mənbəyinə yaxınlaşması və manevr edə bilməsi üçün normalara uyğun meydançanın təşkil edilmədiyi, yanğınların söndürülməsi üçün istifadə edilən yanğına qarşı su mənbələrinə, stasionar yanğın nərdivanlarına və yanğın inventarları saxlanılan sahələrə sərbəst yaxınlaşmaq üçün keçidlərin tutulduğu, daşınmaz əmlakın icbari sığortasının həyata keçirilmədiyi, ərazinin gecə vaxtı işıqlandırılması təmin olunmadığı aşkarlanıb.

Yanğın təhlükəsizliyi norma və qaydalarının pozulması səbəbindən baş verə biləcək yanğın hadisələrindən insanların həyatının və sağlamlığının, dövlətin əmlak maraqlarının, milli sərvətin, ətraf mühitin, bütün mülkiyyət növlərinin qorunması məqsədilə "Yanğın təhlükəsizliyi haqqında" qanunun 25-ci maddəsinin 9-cu və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.7-ci bəndinin tələbləri rəhbər tutularaq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin pozulması faktlarının aşkarlandığı Bakı şəhəri, Nərimanov rayonu, Müzəffər Nərimanov küçəsi, 4 ünvanında yerləşən zavodda rəngləmə sexində işlərin görülməsinin dayandırılması barədə qərar qəbul edilib.

# Bazardüzü zirvəsinin şərqindəki adsız yüksəkliyə "Zəfər zirvəsi" adı verilib



Vətən müharibəsində Qələbə münasibətilə Azərbaycan Ordusunun zabitləri və "Qartal" Dağçılıq İdman Klubunun alpinistlərindən ibarət heyətin Böyük Qafqaz sıra dağlarının Bazardüzü zirvəsinin şərqində yerləşən adsız yüksəkliyə (4301 m) yürüşü təşkil olunub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, "Zəfər Azərbaycanındır!" adlı ekspedisiyanın iştirakçıları mürəkkəb relyefə malik dağlıq ərazini keçərək təyin edilmiş yüksəkliyə qalxıblar.

Ekspedisiyanın iştirakçıları orada Azərbaycan Respublikasının Dövlət bayrağını ucaldıb, Dövlət Himnini ifa edib və Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonda Vətən müharibəsində Qələbəni tərənnüm edən "Zəfər zirvəsi" adlı lövhə bu yüksəklikdə bərkidilib.

# *Reza DEQATİ:* "Birinci Qarabağ müharibəsindəki fotoları göz yaşları ilə çəkirdim"

"Birinci Qarabağ müharibəsindəki fotoları göz yaşları ilə çəkirdim. Çünki orada baş verənlər həqiqətən də dəhşətli idi".




AZƏRTAC xəbər verir ki, bu sözləri məşhur fotoqraf Reza Deqati media nümayəndələri ilə görüşündə deyib.

Fotoqraf qeyd edib ki, hadisələrin içərisində olub çəkdiyi fotolar arasında Xocalı faciəsi kimi dəhşətli mənzərələr az olub.

Daim ermənilərin təzyiqləri ilə üzləşdiyini qeyd edən Reza Deqati deyib: "İkinci Qarabağ müharibəsindən sonra ermənilərin mənə təzyiqləri daha da çoxalıb. Belə ki, keçirməli olduğum bir neçə sərgi ermənilərin təzyiqi ilə ləğv olundu". "Müharibə başladığını öyrəndikdən sonra bütün layihələrimi dayandırdım və buraya gəldim. İşğaldan azad olunmuş ərazilərdə hər şəhərdə, hər kənddə gördüyüm hər şeyi foto-şəkillərimlə sənədləşdirməyə çalışıram ki, tarixdə bu torpaqların hansı formada geri qaytarıldığına dair faktlar qalsın. Haqq sözünü deməyə canımı qoymuşam", - deyə o bildirib.

Sonra R.Deqatinin fotolarından ibarət 6 dəqiqəlik videoçarx nümayiş olunub.

Fotoqraf qeyd edib ki, Qarabağın işğaldan azad edilməsindən sonrakı vəziyyəti, ermənilərin bu gözəl diyarı necə dağıntılara məruz qoyduğunu əks etdirən fotoları bütün dünyaya təqdim etmək fikrindədir. Şuşada böyük bir fotoqalereyanın yaradılması da növbəti layihələr arasındadır.

R.Deqati 20 Yanvar faciəsi, Xocalı soyqırımı, məcburi köçkünlərlə bağlı kitablarının da olduğunu, bu kitabların Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edildiyini bildirib.

Sonra məşhur fotoqraf jurnalistlərin suallarını cavablandırıb.

# FHN-in əməkdaşı Mingəçevirdə intihar məqsədilə özünü çaya atan şəxsi xilas edib

Fevralın 16-da Mingəçevir şəhəri H.Əliyev prospektində 1992-ci il təvəllüdlü Lətifova Əminə Rasim qızı Kür çayının üzərindəki körpüyə çıxaraq intihar məqsədilə özünü çaya atıb.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin vaxt təsadüfən ərazidə olan FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin Aran dalğıc-axtarış qrupunun məzuniyyətdə olan xilasedicisi Dosməmməd Dosməmmədov heç bir xilasetmə vasitəsi olmadan suya tullanaraq vətəndaşın həyatını xilas edib.

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC Yevlax rayonu ərazisində yaradılacaq pilot aqropark layihəsi üzrə tikintisi nəzərdə tutulan ərazilərdə torpaq və qrunt sularının analizlərinin aparılması işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *kotirovka sorğusunda iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri və ya sistemdən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikasında daimi fəaliyyətə və müvafiq iş təcrübəsinə malik olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 22 fevral 2021-ci il saat 12:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 fevral 2021-ci il saat 16:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" də yerləşən ofisində iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsinin Sosial Sığorta və Fərdi Uçot Mərkəzi filialı inventarın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar 530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.02.2021-ci il saat 11:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun "Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması" məqsədilə keçirilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində fiziki şəxs Kərimov İlqar İsmayıl oğlu qalib müəyyən edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə 17.02.2021-ci il tarixi saat 23:00-dan etibarən 18.02.2021-ci il tarixi səhər saatlarınadək aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar bəzi xidmətlərin istifadəsi zamanı müvəqqəti çətinliklərin yaranması mümkündür. Qarşılaşdığınız hal ilə əlaqədar istifadə etdiyiniz mobil telefon cihazının söndürülüb yandırılmasını tövsiyə edə bilərik. Eyni zamanda bildiririk ki, təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bu istiqamətdə tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

# Təbiətin şıltaq oğlu - Kiçik çillə

Qədim zamanlarda insanlar böyük ümidlə baharın gəlişini gözləyiblər. Təbiətin isti nəfəsini, hərarətini duymaq arzusu ilə müxtəlif ayinlər, mərasimlər keçiriblər. Qarlı, çovğunlu günlərin bitməsini, havaların isinib torpağın oyanmasını yeni bir başlanğıc hesab ediblər. İnsanların nəzərində hər il baharın gəlişi ilə Yer üzü təzələnir. Yeni gün, yeni həyat başlayır. Amma o günədək insanlar təbiətin şıltaqlıqları ilə sınanır.





Odur ki, baharın gəlişini bir və ya bir neçə gün bayram etmirlər. Belə ki, Novruz bayramının təmtərağı günlərlə davam edir. Görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib yazırdı: "Böyük bir səbirsizliklə yazın gəlməsini gözləyən qədim azərbaycanlı əkinçi böyük çilləni yola saldıqdan sonra yerdə qalan bir ay iyirmi günü, yəni yeddi həftənin hər çərşənbəsini bayram edirdi. Bunlardan birinci üçünə "oğru üsgü", ikinci üçünə "doğru üsgü", sonuncusuna isə "ilin axır çərşənbəsi" deyirdi. Bu çərşənbələrin hərəsinin özünə görə adət və ənənələri, rüsumat və dəbləri var idi".

Qışın tez bitməsi, yazın gəlməsi, təbiətin oyanması üçün əcdadlarımızın keçirdikləri mərasimlərin bir çoxu unudulsa da, hələ də ənənəvi olaraq qeyd edilənləri az deyil.

## Bərəkət rəmzi - Xıdır Nəbi

Əcdadlarımız qış fəslini üç yerə bölüb, birincisinə Böyük çillə deyiblər. Dekabrın 21-dən 22-nə keçən gecə qışla birlikdə gələn çillələrin böyüyünün ömrü qırx gün çəkir. Böyük çillə dövründə hava tədricən soyusa da, kəskin soyuqlar müşahidə olunmur. Yanvarın 31-dən fevralın 1-nə keçən gecə isə ömrü cəmi iyirmi gün olan Kiçik çillənin dövranı başlayır.

Folklorşünaslar çillə sözünün əzab, əziyyət, çətin, çıxılmaz vəziyyət mənasını verdiyini bildirirlər. Amma rəvayətlərdə, bayatılarda, mərasim nəğmələrində qışın bu iki oğlundan ilkinin - Böyük çillənin daha mərhəmətli, rəhmli olduğundan bəhs olunur. Kiçik çillə isə qışın ən şıltaq, dəlisov oğlu hesab edildiyindən ondan daha çox ehtiyat edib, çəkiniblər.

Ulularımız bu çilləni "qışın oğlan çağı" hesab edirdilər. Ömrü özündən əvvəlki Böyük çillədən də, sonrakı Boz aydan da qısa olan Kiçik çillə soyuğu, şaxtası ilə onlardan fərqlənir. İlk günlərində sərt üzünü göstərən Kiçik çillənin dövründə ilin barlı-bərəkətli aylarında toplanan azuqələr tükənməyə başlayır.

Ölkəmizin bəzi bölgələrində Böyük çillədən Kiçik çilləyə keçəndə bir sıra mərasimlər keçirilir. Kiçik çillənin birinci ongünlüyündə isə Xıdır Nəbi bayramı qeyd olunur. Azərbaycan folklorunda Xızır, Xıdır baba və Xıdır Zində ilə bağlı inamlar sayca üstünlük təşkil edir. Folklorşünaslar qışın ən soyuq, şaxtalı günlərində Xızır peyğəmbərin şərəfinə mərasim, bayram təşkil etməyin, onu çağırmağın qışın çətinliklərindən Xızırın köməyi ilə xilas olmaq mənasını ifadə etdiyini bildirirlər. Xıdır Nəbi bərəkət rəmzi hesab edilir. İnsanlar qışdan sonra gələn yeni ilin onlara bolluq, bərəkət gətirməsini diləyirlər. Bu istək və arzularla da Xıdır Nəbi bayramında xüsusi mərasimlər təşkil edir, qovut çəkir, qovurğa qovururlar.

Xıdır Nəbi bayramı əsasən fevralın 9-u və ya 10-da, Kiçik çillənin yarı olduğu gündə qeyd olunur. Naxçıvanın bəzi kəndlərində Xıdır Nəbi bayramının fevralın 14-15-i Xıdırın anadan olduğu gün kimi qeyd edirlər. Həmin gün adət-ənənəyə görə, oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə Xıdır payı, Xıdır xonçası aparılır.

## Baharın ilk müjdəçisi - yalançı çərşənbə

Xıdır Nəbi bayramından sonra Yalançı çərşənbə gəlir. Məlumdur ki, Novruz bayramından öncə dörd çərşənbə xüsusi bayram kimi qeyd edilir. Doğruçu çərşənbə hesab edilən bu dörd çərşənbənin hər birinin öz mənası var. Belə ki, bu çərşənbələr təbiətin canlanmasında mühüm rol oynamış dörd ünsür - su, torpaq, yel və odun adı ilə əlaqələndirilir və xalq arasında müqəddəs sayılır. Dörd çərşənbənin - su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi və bəzən "ilaxır çərşənbə" də deyilən torpaq çərşənbəsinin hər biri xüsusi mərasimlərlə qeyd olunur.

Ölkəmizin bir sıra regionlarında bu çərşənbələrdən qabaq Yalançı çərşənbə keçirlir. İnanclara görə, Yalançı çərşənbə doğruçu çərşənbənin gəlişinə zəmin hazırlayır, onun gələcəyini xəbərdar edir. Yalançı çərşənbə qeyd olunanda artıq donuq qış fəslinin təbiətə qədəm basmasından qırx gündən çox vaxt keçir. İnsanlar "yaman günün ömrü az olar" deyib yazın gəlişinə ümidlənirlər.

Sonrakı dörd çərşənbə ilə müqayisədə Yalançı çərşənbə sakit keçirilir. Bu çərşənbənin ayinlərinin sayı da çox deyil. Qədim inanca görə, əcdadlarımız "torpağın qızdırılması" məqsədilə tonqal qalayıblar. Yalançı çərşənbədə də insanlar günəş qürub edərkən həyətlərdə tonqallar qalayırlar. Amma gur yanmaması üçün tonqalları saman və küləşdən hazırlayırlar. Odu-ocağı gur olmayan, alovu aldadıcı təsir bağışlayan Yalançı çərşənbənin süfrəsi də adına uyğun olur. Yalançı çərşənbə səssiz-küysüz keçirilir. Həmin gün süfrələr xüsusi bəzədilmir. Doğruçu çərşənbələrdə olduğu kimi, evlərdə ayrıca bayram qazanları asılıb, bayram yeməyi hazırlanmır.

Kiçik çillədən sonra ala çillə, ala çolpav da deyilən Boz aya növbə çatır. Ancaq Kiçik çillə sonunda yenə tufan qoparır. Soyuğu, dondurucu şaxtası, dəlisov küləyi ilə birlikdə çəkilib gedir. Gəlişi ilə insanları qorxudan, qayğılandıran Kiçik çillə gedişi ilə sevinc oyadır. Boz ay başlayır. Qış yuxusuna getmiş təbiət hələ yuxuda olsa da, qış daha qorxulu görünmür. Çünki yazın gəlişinə hazırlıqlara başlanır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Dünyada COVID-19-a yoluxanların sayı kəskin şəkildə azalıb

COVID-19-un yeni ştamlarının ortaya çıxmasına baxmayaraq, dünya statistikası göstərir ki, koronavirus geri çəkilir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus məlumat vermişdir.

ÜST-ün rəhbəri qeyd etmişdir ki, dünya miqyasında COVID-19-a yoluxma hallarının sayı dalbadal beşinci həftədir azalır. Keçən həftə oktyabr ayından bəri ən aşağı həftəlik yoluxma səviyyəsi qeydə alınmışdır. Eyni zamanda həftəlik yeni yoluxma hallarının sayı 2021-ci il yanvarın 4-ü ilə müqayisədə yarıbayarı azalmışdır.

Son məlumata görə, dünyada 109 milyon nəfərdən çox adam yeni tip koronavirusa yoluxmuşdur. 2,4 milyon nəfərdən çox xəstə vəfat etmişdir.

## Əfqanıstanda 7 polis əməkdaşı terrorun qurbanı oldu



Əfqanıstanda bomba partlayışı nəticəsində 7 polis əməkdaşı həlak olmuşdur. Bu barədə yerli təhlükəsizlik qüvvələrindəki mənbələr məlumat vermişdir.

Hadisə ölkənin şimalında yerləşən Faryab əyalətində baş vermişdir. Partlayıcı qurğu polis əməkdaşlarını daşıyan avtomobil keçərkən işə salınmışdır.

Hələlik heç bir təşkilat terror aktına görə məsuliyyəti üzərinə götürməmişdir.

## İran ABŞ-ın sanksiyaları ilə əlaqədar Yaponiya və Aİ-nin vasitəçiliyinə ümid edir

Tehran ABŞ-ın İrana qarşı sanksiyalarının ləğv edilməsi üçün Yaponiya və Avropa İttifaqının (Aİ) vasitəçiliyinə ümid bəsləyir. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Yaponiyanın "Kyodo" agentliyinə müsahibəsində ümidvar olduğunu bildirmişdir ki, ABŞ Prezidenti Co Baydeni belə bir addım atmağa ehtiyac olduğuna inandırmaq mümkün olacaq.

Zərif Tokionu İranın ABŞ ilə də yaxşı əlaqələri olan çoxdankı dostu kimi qiymətləndirmişdir: "Ümid edirik ki, Yaponiya beynəlxalq aləmdə dost ölkə kimi fəaliyyət göstərəcək".

Zərif ABŞ-ın İrana qarşı sanksiyalarının beynəlxalq hüququ kobud şəkildə pozduğunu vurğulamışdır: "Tokio Vaşinqtona nümayiş etdirə bilər ki, Amerika tərəfinin qanunsuz addımlarını nəzərə almaq niyyətində deyil".

## Myanmada etiraz aksiyaları davam edir



Myanmada internetin kəsilməsinə baxmayaraq, hərbi çevrilişə və qanuni hakimiyyətin nümayəndələrinin həbs edilməsinə etiraz əlaməti olaraq kütləvi aksiyalar davam edir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Sosial mediada yerləşdirilmiş görüntülərdən aydın olur ki, etiraz aksiyaları Neypyido və Yanqon şəhərlərində baş vermişdir. Etirazların onuncu günündə dövlət qulluqçuları və özəl şirkətlərin işçiləri nümayişçilərə qoşulmuşlar. Həkimlər, mühəndislər, məmurlar, müəllimlər, keçmiş diplomatlar həmvətənlərini itaətsizlik aksiyasına qatılmağa çağırmışlar.

Xatırladaq ki, cari ayın 1-də Myanmada ordu hakimiyyəti ələ keçirərək rəhbər şəxsləri həbs etmişdir. Dövlət çevrilişindən sonra ölkədə fövqəladə vəziyyət elan olunmuşdur. Myanmaya bir il ərzində hərbi xunta rəhbərlik edəcək.

## ABŞ-da anormal soyuq hava üzündən 4 milyon sakin işıqsız qaldı



Anormal soyuq hava və qar ABŞ-ın cənub ştatlarında elektrik enerjisinin kəsilməsinə səbəb olmuşdur. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Hazırda ölkədə 4 milyon nəfərdən çox sakin işıqsız qalmışdır. Onların 3,6 milyonu Texas ştatındadır. Missisipi, Oklahoma, Missuri, Arkanzasda da on minlərlə adam elektrik enerjisindən məhrum olmuşdur.

Ölkədə 3 mindən çox təyyarə reysi təxirə salınmışdır. Onların yarısından çoxu Texasın payına düşür. Həmçinin əlverişsiz hava şəraiti ucbatından 400 min doza koronavirus peyvəndinin tədarükü təxirə salınmışdır.

ABŞ-ın 24 şəhərində rekord aşağı temperatur qeydə alınmışdır. Srağagün 26 ştatda 150 milyondan çox sakin təhlükəli hava şəraiti barədə xəbərdarlıq almışdır.

## “Bakı Metropoliteni” QSC Elektrik mühərrikləri üçün sarğı materialların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: Elektrik mühərrikləri üçün sarğı materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01.

**İştirak haqqı - 150 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10 mart 2021-ci il saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18 mart 2021-ci il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **19 mart 2021-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Zaqatala Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir.**

LOT 1 - Maşın-mexanizm və nəqliyyat vasitələrinə ehtiyat hissələrinin satın alınması.

LOT 2 - Cari təmir işləri üçün mal-materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, satınalma elektron Portal vasitəsilə keçirildiyi üçün elektron qaydada müraciət etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maddi-texniki imkanları, iddiaçının faktiki yerləşdiyi ünvan, mal-materialların çatdırılması müddəti, maliyyə vəziyyəti. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Məlumat mübadiləsi yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır. Tender təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Malgöndərənlərin (podratçıların) səlahiyyətli nümayəndələri Portala daxil olmaqla iştirak edə bilərlər. Tender zərflərinin açılışı, tenderin qiymətləndirilməsi və bütün prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır. Qanun və digər aidiyyəti normativ hüquqi aktlar ilə Portalın qanunvericilik hissəsində (https:etender.gov.azlaws) tanış ola bilərsiniz (əlaqələndirici şəxs: Ş.İ.Əliyev, tel: 051-541-34-31).

**İştirak haqqı:**
**LOT 1- 100 manat**
**LOT 2 - 100 manat**
**Zaqatala Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ02CTRE00000000000002350201**
**VÖEN: 5100135161**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
**Büdcə təsnifatı : 142330**
**Büdcə səviyyəsinin kodu : 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

**Təşkilati və hüquqi sənədlər:**
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında Dövlət Vergi Xidmətindən arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının təsdiq olunmuş surəti;*
- *təsdiq olunmuş rekvizitlər barədə məlumat;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *nizamnamə;*
- *iddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə Dövlət Statistika Komitəsindən arayış.*

**İxtisas göstəriciləri:**
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin,habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə Dövlət Vergi Xidmətindən arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə Ədliyyə orqanından məlumat;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçuların peşəkarlıq fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyəti ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə DİN və ya “ASAN xidmət” mərkəzlərindən məlumatlar;*
- *digər sənədlər: maddi texniki bazası, işçi sayı, əsas vəsaitləri barədə geniş arayış.*

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar LOT 1 üzrə tenderdə iştirak üçün ixtisas göstəricilərinə dair sənədləri 10 mart 2021-ci il saat 10:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 18 mart 2021-ci il saat 10:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçının təklifləri 19 mart 2021-ci il saat 10:00-da açılacaqdır.

İddiaçılar LOT 2 üzrə tenderdə iştirak üçün ixtisas göstəricilərinə dair sənədləri 10 mart 2021-ci il saat 12:00-a qədər və tender təklifi və bank təminatı sənədlərini 18 mart 2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçının təklifləri 19 mart 2021-ci il saat 12:00-da açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

## Siyəzən Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

LOT 1 - Kanalların mexanizmlə lildən təmizlənməsi və çay məcrasının tənzimlənməsi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: Hüseyn Məmmədli.

Ünvan: Siyəzən şəhəri, D.Turabov küçəsi.

E-mail: siyezenssi@mst.gov.az

Tel.: (02330)4-12-93

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Siyəzən Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ07CTRE00000000000002356901**
**VÖEN: 7100019601**
**Bank: DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).

3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).

4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;

- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

- Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1-ci və 4-cü bəndlərdə qeyd olunan sənədləri 10.03.2021-ci il saat 11:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 18.03.2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri 19.03.2021-ci il saat 11:00-da elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən abraziv qumun satın alınmasına dair 12.02.2021-ci il tarixdə keçirilən açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”
***qəzetinə 2021-ci il üçün***
***abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi Bakı Mühəndislik Universiteti üçün əlavə tədris korpuslarının tikintisi işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 4 mart 2021-ci il saat 18:00-a kimi qəbul olunur.

Zərflərin açılışı 5 mart 2021-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında yerləşən nazirliyin Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Sirac Əliyev (012) 465-73-48 (daxili: 110).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərenerji” ASC tərəfindən 17 dekabr 2020-ci il tarixdə elan edilmiş **2 ədəd 28 m və 32 m hündürlüyə qaldırıcı açıq kabini olan yeni yük avtomobilinin satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyanın qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **“Marketinq və Servis Müəssisəsi” MMC** tenderin qalibi elan edilmişdir.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil **480 000,01 (dörd yüz səksən min manat 01 qəpik) AZN** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 26 yanvar 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında, 27 yanvar 2021-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş Agentliyin 4 departamenti üçün ofis sahəsinin icarəsinin satın alınması dair açıq tenderin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-4.2-ci maddəsinə əsasən Tender komissiyasının qərarı ilə davamından imtina edilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC 2021-ci il üçün kotirovka sorğusu elan edir

Avtomobil nəqliyyat vasitələri üçün sürtkü yağlarının satın alınması.
Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 22 fevral 2021-ci il saat 13:00-dək qəbul olunur.
Tələb olunan sənədlər:
- *nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);*
- *kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);*
- *vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*

**Ünvan: AZ1100 Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27.**
**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12.**

***Tender komissiyası***

# Şəhid və qazi ailələri ziyarət olunub

“Əsgərə xatirə kitabı” layihəsi çərçivəsində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Ağstafa və Tovuz rayonlarında şəhid və qazi ailələri ziyarət olunub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçular, “Əsgərə xatirə kitabı” layihəsinin rəhbəri Nuranə Şıxəliyeva və icraçı direktoru Məltəm Şıxəliyeva 43 şəhid, 6 qazi və əsirlikdən azad olunmuş 1 vətəndaşımızın ailəsini ziyarət ediblər. Görüşlər zamanı şəhid ailələrinin qayğıları ilə maraqlanılıb, söhbətlər aparılıb, ailələrə hədiyyələr və sovqatlar təqdim olunub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Nəsimi rayon prokurorunun böyük müstəntiqi İlyaz Seyidova atası

**HACALI MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal Rayon İcra Hakimiyyəti və rayon ictimaiyyəti Yasamal Rayon İcra Hakimiyyəti başçısının I müavini Hüseyn Əfəndiyevə atası

**NAMİQ ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5203**
**Sifariş 273**
**Qiyməti 40 qəpik**